7 iyun 2024 №42 (2107)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir

### "Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək"

Türk dünyasının birləşməsi istiqamətində ölkələrimiz böyük səylər göstərirlər. Bildiyiniz kimi, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub. Builki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz Türk dünyasıdır. Şadam ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirib.



Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri iyunun 6-da TÜRKPA-nın Bakıda keçirilən 13-cü plenar iclasına qatılan nümayəndə heyətlərinin rəhbərlərini qəbul edərkən deyib. Görüşdə TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er, Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanov, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyev, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Tören və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matrai iştirak ediblər.

Prezident diqqətə çatdırıb ki, bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşü keçiriləcək: "Mən hesab edirəm ki, ildə bir dəfə zirvə görüşünün keçirilməsi kifayət etməz. Çünki həm sürətli, yəni davamlı təmaslara ehtiyac var, eyni zamanda, hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur. Çox şadam və həmkarlarıma minnətdaram ki, onlar bu təşəbbüsü dəstəkləyiblər və düz bir aydan sonra Şuşa şəhərində qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. O görüşün əsas mövzuları nəqliyyat və iqlimlə bağlı olacaq. Bu da təbiidir. Çünki bu gün nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi Türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir... Biz bu mövzu ilə bağlı, gələcək addımlarımızla bağlı geniş fikir mübadiləsi aparmalıyıq".

davamı səh. 2-də

## Bülbül müsabiqəsinin III turuna 16 iştirakçı keçib

### Onların arasında Azərbaycandan iki vokalçı var

İyunun 5-də Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsinin II turu başa çatıb. İkinci tura keçmiş 41 nəfər münsiflər heyətinin qarşısında öz məharətlərini sınayıblar.



Vokalçılar müsabiqənin şərtlərinə uyğun olaraq, Bülbülün repertuarından "Sənsiz" və "Sevgili canan" (musiqi: Ü.Hacıbəyli, söz: N.Gəncəvi), "Ölkəm" (A.Zeynallı, C.Cabbarlı) və "Ulduz" (F.Əmirov, M.Rahim) romanslarından birini və əvvəlcədən özlərinin təqdim etdikləri və təşkilat komitəsinin təsdiq etdiyi siyahı üzrə dünya operalarından (öz səs tembrlərinə uyğun) ariya ifa ediblər. Müsabiqənin şərtlərinə görə, bütün əsərlər orijinalın dilində ifa edilib.

Münsiflərin dəyərləndirməsindən sonra 41 iştirakçıdan 16 nəfəri III tura vəsiqə qazanıb. Onların arasında Azərbaycandan da iki nəfər – Dövlət Akademik Opera və Balet Teatrının solistləri Mahir Tağızadə (bariton) və Ataş Qarayev (tenor) var.

davamı səh. 2-də

## Sovet dövrü təsviri sənətimiz 157 əsərdə

Azərbaycan Milli İncəsənət Muzeyində "1920–1980-ci illər Azərbaycan rəngkarlığı və qrafikası" adlı yeni ekspozisiya qurulub.

İyunun 5-də yeni ekspozisiyanın açılış mərasimi keçirildi. Tədbirdə mədəniyyət naziri Adil Kərimli, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mərasimdə çıxış edən Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova bildirdi ki, ekspozisiyada ümumilikdə 157 rəngkarlıq, qrafika, heykəltaraşlıq və keramika nümunəsi təqdim olunur. XX əsrin əvvəllərində təsviri sənətdə gedən yaradıcılıq axtarışlarını diqqətə çatdıran direktor dedi ki, ekspozisiyada bədii eksperimentlər 1920–1940-cı illər rəssamlar nəslinin görkəmli nümayəndələrinin yaradıcılığı ilə təmsil olunur. Həmin illər Azərbaycan qrafikası ekspozisiyası milli qrafika sənətinin formalaşmasına böyük töhfələr vermiş, özünəməxsus dəst-xəttə malik rəssamların müxtəlif janr və texnikalarda yaratdıqları silsilə əsərlər təşkil edir. Sərgidə ilk dəfə olaraq Bəhruz Kəngərlinin portret, mənzərə, eskiz və rəsmlərindən ibarət albomlar da yer alır.



Ekspozisiyada həmçinin XX əsrin müxtəlif dövrlərində ərsəyə gəlmiş, qrafik əsərlərlə həmahənglik yaradan müəlliflər tərəfindən işlənilmiş keramik fiqurlar və dekorativ boşqablar da nümayiş olunur. Sərgi interaktiv xarakter daşıyır. Hər bir zalda tamaşaçılar QR kod vasitəsilə aid olduqları yaş qrupunu qeyd edib bəyəndikləri əsərə səs vermək imkanına malikdirlər.

davamı səh. 3-də

## Bolqarıstanda Şuşaya həsr olunmuş sərgi və konsert



Bolqarıstanın Sozopol şəhərində təşkil edilən "Soleil" Beynəlxalq Frankofoniya Festivalı çərçivəsində Şuşa şəhərinin tarixi-mədəni irsinin təbliği məqsədilə "Şuşa – Azərbaycanın mədəniyyət irsinin incisi" və "Xarıbülbül – məhəbbət və sülhün rəmzi" adlı foto və rəsm sərgiləri açılıb.

Azərbaycanın Bolqarıstandakı Səfirliyindən bildirilib ki, sərgidə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin füsunkar təbiətini, qədim tarixini və zəngin mədəniyyətini təcəssüm etdirən rəsm və fotolar yer alıb.

Səfir Hüseyn Hüseynov Şuşa şəhərinin Azərbaycanın tarixi və mədəniyyətində tutduğu əvəzsiz yeri barədə danışıb, Azərbaycan mədəniyyəti haqqında ətraflı məlumat verib.

davamı səh. 3-də

## İllərdir itkin düşmüş sayılırdılar...



Xəbər verdiyimiz kimi, Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan və illər sonra kimliyi müəyyənləşdirilən igid Vətən övladlarının nəşinin qalıqları öz el-obalarında ailə və yaxınlarının iştirakı ilə yenidən torpağa tapşırılır. Bu günlərdə daha beş şəhidin dəfn mərasimi olub.

Birinci Qarabağ müharibəsində naməlum şəhid kimi Tərtərdə şəhidlər qəbiristanlığında dəfn edilən Səbuhi Süleymanovun nəşinin qalıqları Şəkinin Cəfərabad kəndinə gətirilib. Ata yurdunda şəhid üçün vida mərasimi keçirilib.

Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub. Səbuhi Süleymanov 1972-ci ildə anadan olub. İkiillik hərbi xidmətdən sonra döyüşlərə könüllü qatılıb. Ailədə üç övlad olublar. 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

davamı səh. 4-də

## Sənətinin hökmdarı...

Yəqin ki, iyunun 7-də tarix boyu çox yaddaqalan hadisələr baş verib, özündən sonra adı, sənəti və xidmətləri xatırlanan kimlərsə dünyaya gəlib. Bu, sadə və adi məntiqlə anlaşılan bir məqamdır. Bizim üçün, Azərbaycan mədəniyyətinin daşıyıcıları, təəssübkeşləri üçün bu tarix görkəmli teatr və kino aktyoru, Xalq artisti, Dövlət mükafatı laureatı Məlik Yusif oğlu Dadaşovun doğum günüdür. O gündən bir əsr keçir.



Bu gün Məlik Dadaşovun 100 illiyidir.

səh. 6

## Etnosport festivalında "Koroğlu" şou-kompozisiyası və mədəni irsimiz





İyunun 6-da İstanbulda VI Etnosport Beynəlxalq Mədəniyyət Festivalı başlayıb. Ölkəmiz festivalda Azərbaycan Atçılıq Federasiyasının təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin 52 nəfərdən ibarət nümayəndə heyəti və "Azərbaycan çadırı" ilə təmsil olunur.

Festivala 14 Qarabağ atı gətirilib. Nümayəndə heyətimiz xalqımızın qəhrəmanlıq rəmzlərindən olan "Koroğlu"nun adını daşıyan şou-kompozisiya ilə çıxış edəcək. Kompozisiyanın əsasını Qarabağ atları, milli musiqimiz və zərif Azərbaycan rəqsləri təşkil edir.

Ankarada səfirliyimizin nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə qurulan "Azərbaycan çadırı"nda ölkəmizin milli-mədəni dəyərləri, eləcə də milli musiqi və rəqsləri, müxtəlif bölgələrimizə aid xalçalar, Azərbaycan kəndlisinin həyat tərzini əks etdirən ev əşyaları, milli geyimlər iştirakçılara təqdim olunur. Qonaqlar canlı olaraq mütəxəssislərin Azərbaycan xalçasının toxunma prosesi, miniatür rəsmlərin yaradılması və ağac üzərində oyma sənətinə dair iş prosesini yaxından izləmək imkanı əldə ediblər.

Tədbirin bədii hissəsində mərkəzin nəzdində fəaliyyət göstərən "Xəzər" rəqs ansamblının ifasında milli rəqslərimiz, azərbaycanlı gənc ritm ustalarının çıxışları, habelə Ağdam rayon Gülablı kənd Musiqi məktəbinin müəllimi, gənc xanəndə Habil Məmmədov və şagirdlərinin ifaları nəzərdə tutulub.

İstanbulun artıq fəaliyyətini dayandırmış Atatürk hava limanının ərazisində təşkil olunan tədbirdə 30-dan çox ölkə iştirak edir.

Atçılıq, oxatma, güləş kimi milli idman növlərinin nümayiş etdirildiyi festivalda hər il fərqli coğrafiyaların özünəxas oyunları tanıdılır.

2016-cı ildən etibarən Dünya Etnosport Konfederasiyası tərəfindən ənənəvi olaraq təşkil olunan festivalda indiyədək ümumilikdə 50-dən artıq ölkə iştirak edib. Azərbaycandan Qarabağ atlarının nümayişləri isə hər il iştirakçılar tərəfindən xüsusi maraqla qarşılanır.

## Türkiyənin azərbaycanlı astronavtı bayrağımızı kosmosa aparacaq



ABŞ-nin "Spaceport" (Nyu-Meksiko ştatı) kosmodromundan iyunun 8-də suborbital uçuşa hazırlaşan Türkiyə tarixində ikinci astronavt Tuva Cihangir Atasever bildirib ki, missiya zamanı üzərində Türkiyə və Azərbaycan bayraqlarının işləmələri olan forma geyinəcək.

O, "Anadolu" agentliyinə müsahibəsində anasının Azərbaycandan olduğunu xatırladıb.

"Missiya zamanı Prezident Rəcəb Tayyib Ərdoğanın aprel ayında "TEKNOFEST" festivalı çərçivəsində mənə verdiyi Türkiyə bayrağı da mənimlə olacaq. Anamın Vətəni olan Azərbaycanın bayrağını da özümlə aparacağam. Hər iki bayraq sinəmdə parlayacaq", – deyə astronavt bildirib.

Atasever qeyd edib ki, Türkiyə və Azərbaycan bayraqları hər zaman xalqlarımızın qardaşlığını və bir-birinə dəstəyini simvolizə edərək bərabər dalğalandıqları kimi, kosmik missiyada da birlikdə olacaqlar.

Qeyd edək ki, Türkiyənin ilk astronavtı Alper Gezeravcı bu il yanvarın 19-da "SpaceX" şirkətinin "Dragon" kosmik gəmisində ispan, italyan və isveçli astronavtlarla birgə kosmosa uçmuş və Yerdən 90 km yüksəklikdə Beynəlxalq Kosmik Stansiyadakı qrupa qoşulmuşdu. A.Gezeravcı fevralın 7-də Yerə qayıdıb.



Bakıda Türk filmləri həftəsi keçirilib

səh. 2



Xanım İsmayılqızının yaradıcılıq gecəsi

səh. 5

# Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir

## “Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək”



*əvvəli səh. 1-də*

Dövlətimizin başçısı deyib ki, iqlim məsələləri bu gün Azərbaycanın gündəliyində duran əsas vəzifələrdən biridir. Azərbaycan bu il COP29 konfransına ev sahibliyi edəcək. Bu, bizim üçün həm böyük məsuliyyətdir, həm də böyük şərəfdir. Bu qlobal tədbirə hazırlıq ərəfəsində, əlbəttə ki, qardaş ölkələrlə bu məsələləri də müzakirə etmək böyük fayda verəcəkdir.

Prezident TDT zirvə görüşünün Şuşada keçirilməsinin böyük rəmzi məna daşıdığını da vurğulayıb. Bildirib ki, Şuşa 4 ilə yaxındır işğaldan azad edilib və orada sürətlə quruculuq-bərpa işləri aparılır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya, eləcə də Azərbaycanın işğaldan edilmiş digər bölgələrinə səfərlər ediblər. Bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır.

“Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir. Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda qardaş ölkələrin təşəbbüsü və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi fəaliyyətə başlamışdır. Bunlar Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilib. Bir məktəbin təməlini isə bu yaxınlarda Qırğızıstan Prezidenti ilə bərabər Ağdam rayonunda qoyduq. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə bir məktəb inşa ediləcək. Yəni bütün bunlar bir daha birliyimizi göstərir. Bu fürsətdən istifadə edərək mən qardaş ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm”, – deyə İlham Əliyev əlavə edib.

Prezident onu da qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə geniş yol-nəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər fəal iştirak edirlər. Eyni zamanda, dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz-Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir: “Yəni biz azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə görürük. Təbii ki, bu həm bizi sevindirir, həm də bütün Türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir”.

Azad edilmiş torpaqlarda həyatın bərpa olunduğunu bildirən dövlətimizin başçısı deyib: “Artıq 4 şəhər və 4 kənd bərpa edilib və keçmiş köçkünlər oraya qayıtmışlar. Yeddi mindən çox keçmiş köçkün artıq öz dədə-baba torpaqlarında yaşayır və bu ilin sonuna qədər bu rəqəm ən azı 20 minə çatacaq. Geniş quruculuq, abadlıq işləri aparılır və Qarabağ, Şərqi Zəngəzur dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir”.

Prezident TÜRKPA-nın Bakıda keçirilən toplantısının əhəmiyyətini vurğulayaraq qeyd edib ki, müzakirə ediləcək məsələlər bizim birliyimizi daha da gücləndirəcək: “Eyni zamanda, hər dəfə qardaş ölkələrdən yüksəkvəzifəli şəxslər ölkəmizə gələndə, bu, bizi sevindirir. Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir. Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması – bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük. Hər bir toplantı, hər bir zirvə görüşü bizim məqsədlərimizə doğru atılan növbəti addım olur”.

***

Qeyd edək ki, 5-6 iyun tarixlərində Bakıda TÜRKPA-nın 13-cü Plenar iclasında TBMM sədri Numan Kurtulmuş assambleyaya keçici sədrliyi Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovaya təhvil verib.

Plenar iclas çərçivəsində parlament baş katibləri və aparat rəhbərlərinin görüşü olub. TÜRKPA-nın Qadın parlamentarilər qrupunun iclası, həmçinin Milli Məclisdə TÜRKPA-nın Gənc parlamentarilər qrupunun toplantısı keçirilib.

# Putin: Rusiya-Azərbaycan münasibətləri etibarlı və praqmatik şəkildə inkişaf edir

İyunun 5-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ənənəvi Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində beynəlxalq informasiya agentliklərinin rəhbərləri ilə görüşüb və onların suallarını cavablandırıb.



TASS tərəfindən təşkil olunan görüşdə 15-dən çox ölkənin informasiya agentliklərinin rəhbərləri, o cümlədən AZƏRTAC-ın idarə heyətinin sədri Vüqar Əliyev iştirak edib.

Prezident Vladimir Putin AZƏRTAC-ın rəhbərinin Azərbaycan-Rusiya münasibətləri, o cümlədən Şimal-Cənub Nəqliyyat Dəhlizi üzrə əməkdaşlığa dair suallarını da cavablandırıb.

Rusiya lideri deyib: “Münasibətlərimiz uğurla, etibarlı və çox praqmatik şəkildə inkişaf edir. Biz Azərbaycan rəhbərliyinin dövlətlərarası əlaqələrimizin məhz qarşılıqlı maraq və mən deyərdim ki, bir-birinə müəyyən səviyyədə rəğbət əsasında qurulmasının tərəfdarı olduğunu hiss edirik. Azərbaycanda rus dilində fəaliyyət göstərən və uşaqlara təhsil verən 300 məktəbin mövcudluğunu başqa cür izah etmək mümkün deyil. Mən bilirəm ki, Prezident Əliyev respublikada rus dilinin öyrənilməsini hərtərəfli dəstəkləyir. Bu, bütün vektorlar üzrə müşahidə edilir. Bu, nədən xəbər verir? Bu, ondan xəbər verir ki, Azərbaycan rəhbərliyi Azərbaycan vətəndaşlarına rus dilinin lazım olacağını bilir. Nə üçün? İkitərəfli əlaqələrin inkişafı üçün və bu əlaqələr hazırda inkişaf edir. İndi bizdə ticarət dövriyyəsinin ümumi həcmi, əgər dollarla ifadə etsək, 4,5-4,6 milyard dollar təşkil edir. Temp yaxşıdır. İnkişaf tempi çox yaxşıdır. Münasibətlərimizi getdikcə daha çox şaxələndiririk.

Əminəm ki, hər iki tərəfdən belə əhvali-ruhiyyə saxlanılsa, – Rusiyada biz bu əhvali-ruhiyyədəyik, – nəticələr də yaxşı olacaq. Bu baxımdan, logistikanın inkişafı baxımından çox iş görmək lazımdır... Bu, digər istiqamətlərə də aiddir. Rusiyada Azərbaycandan, o cümlədən Rusiya büdcəsi hesabına təhsil alan tələbələr çoxdur. Biz görürük ki, gənclərin Rusiyada təhsil almağa marağı da kifayət qədər böyükdür.

Şimal-Cənub dəhlizinə gəldikdə, o, çox yaxşı, böyük tələbat duyulan beynəlxalq dəhlizə çevrilə bilər. Buradan yüklər sizin və mənim olduğumuz yerdən – Sankt-Peterburq limanından Avropa hissəsi ilə Azərbaycana, sonra isə İrana və Fars körfəzinin sahilinə göndəriləcək. Məncə, bu, Süveyş kanalından təxminən on gün daha tezdir. Pis heç nə demək istəmirik, Süveyş kanalı, əksinə, dünya ticarəti üçün çox gərəklidir. Ancaq bu dəhliz malların Şimala və Cənuba, əks istiqamətə çatdırılması üçün əlavə və çox səmərəli yol olacaq. Bu, çox qənaətli, səmərəli və sərfəli marşrut olacaq. Ancaq burada hələ çox iş görmək lazımdır. Biz hər iki tərəfdən iş aparırıq. Mən bilirəm ki, Prezident Əliyev bu layihəni dəstəkləyir. Biz bu məsələni onunla dəfələrlə müzakirə etmişik. İran rəhbərliyi də bu layihəni dəstəkləyir. Bu dəhliz çox sərfəli olacağına görə həmin layihəyə xarici investorlar, regional olmayan, lakin yaxın olan ölkələr, o cümlədən suveren ərəb fondları da maraq göstərir...

Burada əlavə, araşdırma tələb edən məsələlər var. Bu dəhliz hansı ərazilər, o cümlədən Azərbaycanın hansı əraziləri üzrə olacaq və onu necə maliyyələşdirəcəyik? ...Ancaq ən başlıcası odur ki, hamı bu layihənin həyata keçirilməsinin tərəfdarıdır... Beləliklə, bu, çox yaxşı bir layihədir, lakin birgə həyata keçirdiyimiz yeganə layihə deyil.

Bundan başqa, Azərbaycan Xəzəryanı dövlətdir, Xəzəryanı dövlətlərin beşliyinə daxildir və burada da, o cümlədən Xəzər dənizinin ekologiyası ilə bağlı məsələlərdə də bizim bir çox ümumi maraqlarımız var”.

# Bülbül müsabiqəsinin III turuna 16 iştirakçı keçib

*əvvəli səh. 1-də*



Xatırladaq ki, müsabiqəyə Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Cənubi Koreya, Makedoniya və digər ölkələrdən ümumilikdə 140 nəfərdən çox 18-36 yaş arasında vokalçı qatılıb.

I və II turlarda fortepianonun müşayiəti ilə çıxış etmiş iştirakçılar müsabiqənin qaydalarına görə, III turda simfonik orkestrin müşayiəti ilə çıxış edəcəklər.

İyunun 6-da müsabiqə iştirakçıları Azərbaycan Dövlət Akademik Filarmoniyasının simfonik orkestrinin müşayiəti ilə məşq-çıxış ediblər.

İyunun 7-də isə müsabiqənin həlledici, III turu olacaq. 16 iddialının III tur və qala-konsertdə çıxışlarını Əməkdar artistlər Əyyub Quliyev, Fuad İbrahimov, Mustafa Mehmandarov və Murtuza Bülbülün dirijorluğu ilə simfonik orkestr müşayiət edəcək.

Müsabiqə çıxışları başa çatdıqdan sonra iştirakçıların yarış həyəcanından çıxmaq, eləcə də iyunda avqust havasında olan bürkülü Bakıdan sonra dincəlmək və sözün bütün mənalarında, havasını dəyişmək şansı olacaq.

Qaliblərin mükafatlandırılması mərasimi və final konserti iyunun 9-da Şuşada, Bülbülün Ev-Muzeyinin həyətində keçiriləcək.

**Gülcahan Mirməmməd**

# Kuklaçılar festivaldan mükafatla qayıdıblar

Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Kukla Teatrı kollektivi 1-4 iyun tarixlərində Gürcüstanda səfərdə olub.

Teatrın direktoru Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadənin rəhbərlik etdiyi qrup Tibilisi şəhərində keçirilən Uşaq və Gənclər Beynəlxalq Teatr Festivalında uğurla iştirak edib.



10-a yaxın ölkənin qatıldığı teatr bayramında “Məlikməmməd” nağıl-tamaşasını nümayiş etdirən Azərbaycan kuklaçıları “Ən yaxşı səhnə həlli” və “Ən gözəl kukla” nominasiyalarında mükafata layiq görülüblər.

Məlumat üçün deyək ki, bu səfər Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında 2022-ci ildə imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində reallaşıb.

Xatırladaq ki, teatr qrupu “Məlikməmməd”i həm də azərbaycanlıların kompakt yaşadıqları Marneulidə də göstərərək tamaşaçıları sevindirib.

# Bakıda növbəti Türk filmləri həftəsi keçirilib




Türkiyə Mədəniyyət və Turizm Nazirliyi və Yerli Düşüncə Dərnəyinin təşkilatçılığı ilə 1–5 iyun tarixlərində Bakıda 7-ci Türk filmləri həftəsi keçirilib.

Nizami Kino Mərkəzində təşkil olunan kino həftəsinin açılış mərasimində Türkiyənin Bakıdakı səfiri Cahit Bağcı, Yerli Düşüncə Dərnəyinin sədri Metin Gündoğdu, layihənin koordinatoru Öner Kılıç, hər iki ölkənin kino ictimaiyyətinin nümayəndələri və digər şəxslər iştirak ediblər.

Sənət həftəsi “Sadıq Əhməd – böyük mübarizənin hekayəsi” adlı filmlə açılıb. Film Qərbi Trakya (Yunanıstanın şimalında türklərin yaşadığı bölgə) türk azlığının lideri mərhum Sadıq Əhmədin (1947–1995) həyatından bəhs edir.

Nümayişdən öncə çıxış edən Türkiyə səfiri Cahit Bağcı bildirib ki, layihənin məqsədi kino sahəsində əməkdaşlıqla Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına töhfə verməkdir. “Layihə çərçivəsində kinosevərlərin böyük marağına səbəb olan məşhur filmlər, eləcə də beynəlxalq mükafatlı ekran əsərləri təqdim olunur. Biz həm də bu filmlərlə türk kinematoqrafiyasının imkanlarını nümayiş etdiririk”, – deyə diplomat bildirib.

Səfir həmçinin “Sadıq Əhməd” filmi barədə də məlumat verib. Qeyd edib ki, Sadıq Əhməd Qərbi Trakya türklərinin haqq davasının simvolik adıdır: “Haqq mübarizəsini sona qədər müdafiə edənlər, zülmə boyun əyməyənlər hər zaman Sadıq Əhməd kimi olub. Zəfərlə bitən uğur hekayələrinin hamısında biz Sadıq Əhmədləri görürük”.

Sonra film nümayiş olunub.

Qeyd edək ki, həftə çərçivəsində kinosevərlər “Son şam yeməyi”, “Həyatla barış”, “Nəfəs: Yer eksi iki” və “Rafadan tayfa: Hayrimtör” filmlərini izləyiblər. Film nümayişləri ilə yanaşı, Türkiyədən gələn rejissor, aktyor və prodüserlərin azərbaycanlı həmkarları ilə görüşləri olub. Sənət mübadiləsi, birgə layihələr barədə fikir mübadiləsi aparılıb. Türkiyəli kinematoqraflar eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tələbələrlə də görüşüblər.

**L.Azəri**

# Yeni “Novxanı” xalçası hanadan kəsilib



İyunun 5-də Azərbaycan Milli Xalça Muzeyində Bakı qrupuna aid ”Novxanı” xalçasının hanadan kəsimi ilə bağlı mərasim keçirilib.

Muzeydə gözəl ənənəyə çevrilən bu mərasimdə muzeyin kollektivi ilə yanaşı, ziyarətçilər də iştirak ediblər.

Qeyd edək ki, yeni ərsəyə gələn sənət nümunəsi muzeyin kolleksiyasında qorunan XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid “Novxanı” xalçasının replikasıdır.

Əsər muzeyin Ənənəvi texnologiya şöbəsində xalçaçı rəssam Şəbnəm Piriyevanın texniki çeşnisi əsasında Gülxar Soltanova tərəfindən toxunub.

**Lalə**

# Macarıstan azad olunmuş ərazilərin bərpasına töhfə verir

Macarıstan şirkətləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında fəal iştirak edir.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bunu iyunun 5-də Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə birgə mətbuat konfransında söyləyib. Mətbuat konfransı Azərbaycan və Macarıstan arasında Strateji Dialoqun 2-ci iclasının nəticələrinə dair keçirilib.

XİN-dən verilən məlumata görə, iclas zamanı iqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, bərpaolunan enerji ehtiyatları, humanitar, təhsil, mədəniyyət və sair istiqamətlər üzrə çoxşaxəli əməkdaşlıq gündəliyində duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. İqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın rolu vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, ATƏT, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstəyin təqdirəlayiq olduğu bildirilib. Azərbaycanın COP29-a sədrliyinin prioritet istiqamətləri, danışıqlar və hazırlıq işləri, habelə əməkdaşlıq imkanları barədə müzakirə aparılıb.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma, minatəmizləmə fəaliyyəti, Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin hazırkı vəziyyəti barədə ətraflı məlumatlandırılıb.

Macarıstanın aparılan quruculuq işlərinə töhfəsi, regional sülh səylərinə göstərdiyi dəstəyi, habelə prosesə töhfə verməyən addımlara qarşı sərgilədiyi mövqe minnətdarlıqla qeyd olunub.

# Sumqayıtda gənclərin səhnə debütləri

Sumqayıt Dövlət Dram Teatrı iyunun 25-də hərbi-vətənpərvərlik mövzusunda daha bir səhnə işinin premyerasını edəcək. ”Xeyir xəbər” adlı tamaşa Əməkdar incəsənət xadimi Əli Əmirlinin eyniadlı pyesi əsasında ərsəyə gəlib. Tamaşanı Mədəniyyət Nazirliyinin tövsiyəsi ilə gənc rejissor Fuad Cavadzadə hazırlayıb.

Vətən müharibəsi şəhidlərinə ithaf olunmuş əsərdə kədər, sevinc, həyəcan dolu anlar bir ailənin timsalında ümumiləşdirilərək tamaşaçıya çatdırılır.

Tamaşanın bədii rəhbəri teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman Qəniyev, qrafika və montaj rejissoru Sahil Nəzərovdur.

Obrazları Əməkdar artist Elmira Kərimova, aktyorlar Habil Xanlarov, Siyavuş Mahmudov, Akif Mirzəyev, Şəmistan Süleymanlı, Elay Xasıyev, Məryəm Hüseynli, Aynur Hümbətova, Cavanşir Eyyubzadə canlandırırlar.

Hazırda teatrda daha bir gənc quruluşçu tamaşa hazırlığı edir. Teatrın rəhbərliyi bu dəfə ADMİU-nun diplomantı Afaq Qədimliyə şans verib. O, teatrda özünün diplom tamaşasını hazırlayır. Jan Koktonun “İnsan səsi” monotamaşası iyulun 2-də təqdim olunacaq.



# Sovet dövrü təsviri sənətimiz 157 əsərdə

## Milli İncəsənət Muzeyində yeni ekspozisiyanın açılışı keçirilib



*əvvəli səh. 1-də*

Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov ekspozisiyadakı əsərlərin hər birinin xüsusi əhəmiyyətə malik olduğunu söylədi: "Burada Azərbaycanın sovet dövrü təsviri incəsənətinin ən vacib mərhələsini müəyyən etmiş Azərbaycanın korifey rəssamlarının əsərləri nümayiş olunur. Bu sərgi XX əsr Azərbaycan rəssamlığının "qızıl dövrü"nün ustad rəssamlarının yaradıcılığının mənzərəsini bizə nümayiş etdirir".

Çıxışlardan sonra qonaqlar ekspozisiya ilə yaxından tanış oldular.

1920–1980-ci illəri əhatə edən nümunələr həmin dövrdə boyakarlıq sənətinin keçdiyi inkişaf yolunu müfəssəl şəkildə əks etdirir. 1920–1940-cı illər Salam Salamzadə, Rüstəm Mustafayev, Ələkbər Rzaquliyev, Əli Rasim Muxtarov, Reyhan Topçubaşova, Qəzənfər Xalıqov, Sadıq Şərifzadə, Davud Kazımov kimi rəssamların yaradıcılığı ilə təmsil olunur.

Ekspozisiyada tarixi mərhələlər mövzu və üslub müxtəlifliyi ilə seçilən ayrı-ayrı tanınmış Azərbaycan rəssamlarının təsviri sənətimizin qızıl fond"una daxil olan əsərləri vasitəsilə izlənilir. Maral Rəhmanzadənin milli koloritli mənzərələri və Azərbaycan qadın obrazları, Xalidə Səfərovanın zəngin və parlaq rəng palitrasına malik mənzərələri, Səttar Bəhlulzadənin doğma yurdun tərənnümünə həsr olunmuş peyzaj və natürmortları, Kamil Xanlarovun lirik-emosional xarakterli, mükəmməl koloritə malik mənzərə lövhələri, Toğrul Nərimanbəyov və Nadir Əbdürrəhmanovun obrazların ifadəliliyi, dekorativ motivlərin zənginliyi ilə seçilən tabloları, Böyükağa Mirzəzadənin sadə zəhmət insanlarını təsvir edən, bədii həllin gözəlliyi ilə fərqlənən tematik əsərləri Azərbaycan rəngkarlığının dolğun təəssüratını yaradır.

Ekspozisiyanı Tahir Salahovun neftçi obrazlarının əks olunduğu sərt üslubun romantikası ilə yaddaqalan, sevimli Abşeron mövzusunu əks etdirən əsərləri tamamlayır. Burada həmçinin



ekspozisiya mövzuları ilə səsləşən, müəllifləri görkəmli heykəltaraşlar Mirəli Mirqasımov, Ömər Eldarov, Həyat Abdullayeva, Elmira Hüseynova və Xanlar Əhmədov olan əsərlər yer alır.

Vitrində sərgilənən albomların bütün səhifələri elektron formatda, sensorlu ekran vasitəsilə təqdim olunur. Maraqlı məqamlardan biri Bəhruz Kəngərlinin natürmortunda əks olunmuş keramik mürəkkəbqabının əyani olaraq nümayişidir. Burada XX əsrin müxtəlif onilliklərində ərsəyə gəlmiş, qrafik əsərlərlə həmahənglik yaradan Yelena Orbeliani, Zivər Məmmədova, Həyat Abdullayeva, Rasim Xələfov, Telman Zeynalov, Oqtay Şıxəliyev, Liya Ağamalova, Həsənağa Ələsgərov, Saleh Məmmədov kimi tanınmış müəlliflər tərəfindən işlənilmiş keramik fiqurlar və dekorativ boşqabları görmək olar.

Qeyd edək ki, ekspozisiya muzeydə daimi nümayiş üçün nəzərdə tutulur.

**Lalə Azəri**

# Oxucudan umacağı yox idi...

## Vaqif Səmədoğlunun xatirəsi ata ocağında yad edildi



İyunun 5-də müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən Xalq şairi, dramaturq, ssenarist, Dövlət mükafatı laureatı Vaqif Səmədoğlunun (1939–2015) anadan olmasının 85-ci ildönümü tamam oldu.

Həmin gün Səməd Vurğunun Ev-Muzeyində şairin xatirəsinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Abdulla Şaiq və Cəfər Cabbarlının ev-muzeylərinin əməkdaşları, şairin həyat yoldaşı Nüşabə Babayeva-Vəkilova, ədəbiyyat və incəsənət nümayəndələri, musiqiçilər iştirak edirdilər.

Muzeyin direktoru tanınmış pianoçu Vurğun Vəkilov tədbiri açaraq şairin bənzərsiz yaradıcılığından danışdı. Qeyd etdi ki, Vaqif Səmədoğlu dövrünün tanınan və sevilən şairi olub: "Vaqif Səmədoğlu yaradıcılığında həyat və zaman, dünya və insan haqqında lirik-fəlsəfi düşüncələrini özünəməxsus üslubda oxucuya çatdırıb. Bəlkə də, musiqiçi olduğum üçün onu şairdən çox musiqiçi kimi tanımışam".

Yazıçı-publisist Məti Osmanoğlu çıxışında Vaqif Səmədoğlunun poetik dünyasının özünəməxsusluğundan, poeziyamızdakı yerindən danışdı. Qeyd etdi ki, şairin şeirləri o dövrün "sərbəst şeir" axını içində fərqlənib. Sözün hərfi mənasındakı sərbəstliyə, şeirlərin ruhundakı azadlığa və genişliyə görə: "Vaqifin şeirlərinin üzərində qərəzli tendensiyalılıq, məqsədli "yenilikçilik, ümumiyyətlə, oxucudan qərəzli və minnətli umacaq olmayıb".

Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu bildirdi ki, Vaqif Səmədoğlu həm danışıq dilimizin, həm də ədəbi dilimizin tezliyində əsərlər qələmə alırdı.

Çıxışlar arasında aktyor, qiraətçi Kamran M.Yunis və digər qonaqların ifasında V.Səmədoğlunun şeirləri səsləndirildi. Pianoçuların müşayiəti ilə caz mövzusunda improvizələr təqdim olundu.

Sonda tədbir iştirakçıları Vaqif Səmədoğlunun fotolarından ibarət videoçarxı izlədilər.

**S.Fərəcov**

# "Musiqidə ədəbi dil normaları"

İyunun 6-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində "Musiqidə ədəbi dil normaları" adlı seminar keçirilib.





Tədbir Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM), Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin təşkilatçılığı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin dəstəyi ilə təşkil olunub.

MEMİM-in direktoru vəzifəsini icra edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətov seminarın mövzusunun aktual və vacib məsələyə həsr olunduğunu bildirib.

Muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova qeyd edib ki, hər dilin öz qaydaları və struktur normaları olduğu üçün onları bir-biri ilə qarışdırmaq olmaz.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru professor Sevinc Əliyeva, BMA-nın prorektoru Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə, akademiyanın Humanitar elmlər kafedrasının müdiri filologiya elmləri doktoru, professor Tərlan Quliyev və Monitorinq Mərkəzinin aparıcı mütəxəssisi Günel Hacıyeva musiqi nümunələrinin mətnlərində Azərbaycan dilinin normalarının pozulması halları, aktual problemlər, ədəbi dil normalarına riayət olunması kimi məsələlərə toxunublar.

Vokalçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artist İlham Nəzərov mahnılarda söz seçimi məsələsinə diqqət yetirib, Nizaminin "Könlüm sitəminlə cana yetdi", "Sənsiz" qəzəllərinə yazılan romansları ifa edib.

Tədbirdə milli dəyərlərin inkişafında dil və musiqinin əhəmiyyətindən, mahnı mətnlərində yol verilən nitq qüsurları, üslub və ifadə səhvləri kimi məsələlərə də toxunulub. Musiqinin cəmiyyətin müxtəlif sahələrinə təsirindən bəhs edilib.

# "Yaradıcı müzakirələr"in növbəti mərhələsi yekunlaşıb

Mədəniyyət Nazirliyinin "Yaradıcı müzakirələr" layihəsi Şamaxı şəhərində davam edib. Layihə mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüsdür.

Şamaxı rayon Mədəniyyət Mərkəzində keçirilən layihə çərçivəsində yaradıcı klasterlər üzrə seminar, ustad dərsləri, tanınmış şəxslərlə görüş təşkil olunub. Sessiyalar kino, rəsm, dizayn, kulinariya, animasiya, yaradıcı startaplar, fotoqrafiya, bədii şüşə sənəti, dəb və digər mövzuları əhatə edib.

May ayı ərzində Şamaxı ilə yanaşı, Quba, Gəncə, Mingəçevir və Şəki şəhər və rayonlarında təşkil olunan maarifləndirici sessiyalara ümumilikdə 3000 nəfərdən artıq iştirakçı qoşulub.

Qeyd edək ki, bu ilin sentyabr-oktyabr aylarında digər regionlarda da (Bakı, Sumqayıt, Naxçıvan, Lənkəran, Şuşa) növbəti sessiyaların təşkil olunması və ilin sonunadək ümumilikdə 5000 nəfərdən çox iştirakçının layihəyə cəlb edilməsi nəzərdə tutulub.

Xatırladaq ki, "Creative Talks" ("Yaradıcı Müzakirələr") layihəsinə Mədəniyyət Nazirliyi tərəfindən ötən ilin noyabr ayında "Yaradıcı Həftə" çərçivəsində başlanılıb.

# Azərbaycanlı tələbələr Parisdə musiqi qrupu yaradıblar

Alfred Korton adına "Ycole Normale de Musique de Paris" musiqi məktəbinin iki azərbaycanlı tələbəsi klassik musiqini yenidən gündəmə gətirməyi qərara alıb. Ağarəhim Quliyev (fleyta) və Eldəniz Ələkbərzadə (piano) klassik musiqilərə, eləcə də Azərbaycan bəstəkarlarının əsərlərinə yeni nəfəs vermək məqsədilə "Duo Avey" adlı qrup və onun internet səhifəsini yaradıblar.



Son iki ildə bəzi konsertlərdə birgə çıxış edən azərbaycanlı gənclər klassik musiqini, xüsusilə də unudulmuş musiqiləri yenidən gündəliyə gətirmək üçün birgə fəaliyyət göstərməyi qərara alıblar. Onların repertuarında Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov, Tofiq Quliyev kimi bəstəkarlarımızın əsərləri də yer alacaq. Gənc musiqiçilərin məqsədi Azərbaycan bəstəkarlarının zəngin irsini daha geniş auditoriyaya tanıtmaqdır.

"Duo Avey" qrupu yalnız musiqinin texniki icrasına deyil, həm də səslənməsinə xüsusi diqqət yetirir.

# Mədəniyyət Nazirliyində Almaniya və Avstriya səfirləri ilə görüşlər

## Mövcud əlaqələr və perspektivlər müzakirə olunub



Mədəniyyət naziri Adil Kərimli iyunun 5-də Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Ralf Horleman ilə görüşüb.

Səfiri salamlayan nazir Azərbaycan ilə Almaniya arasında mövcud olan əlaqələrdən danışıb. Qeyd olunub ki, iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Almaniya səfiri Ralf Horleman qəbula görə təşəkkürünü bildirib. Azərbaycanda alman irsinə göstərilən diqqət və qayğını yüksək qiymətləndirən diplomat bu istiqamətdə mədəni turizm layihəsi ilə bağlı təklif səsləndirib.

Söhbət zamanı iki ölkənin mədəniyyət müəssisələri, o cümlədən kitabxana, muzey, sərgi salonları və teatr-konsert müəssisələri arasında əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyəti qeyd edilib.

Həmçinin bu ilin noyabr ayında ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində nəzərdə tutulan iqlim dəyişiklikləri və mədəniyyət mövzusu üzrə müzakirələrdə Almaniyanın müvafiq institutlarının təmsil olunması ilə bağlı fikir mübadiləsi aparılıb.

***

Mədəniyyət naziri Adil Kərimli iyunun 5-də Avstriyanın Azərbaycandakı səfiri Tomas Şuller-Qötzburq ilə də görüşüb.

Nazir əvvəlcə iki ölkə arasında əlaqələrdən söz açıb. Qeyd edib ki, Azərbaycan və Avstriya arasında müxtəlif sahələrdə yaxşı əməkdaşlıq mövcuddur. Ölkəmiz mədəniyyət sahəsində əlaqələrin inkişafında maraqlıdır.

Görüşdə kino, muzey və kitabxana işi, tarixi və mədəni irsin qeydiyyatı, qorunması, bərpası, habelə yaradıcı sənaye sahələrində bilik və təcrübə mübadiləsinin aparılması imkanları nəzərdən keçirilib. Söhbət zamanı bədii təhsil üzrə tələbə mübadiləsi və mədəni irsin idarə edilməsi ilə bağlı kadr hazırlığı məsələləri də müzakirə olunub.

Avstriya tərəfi bu ilin noyabrında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak üçün dəvət olunub.

# "Qonağımız var" – Həmidə Ömərova

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzində "Qonağımız var" layihəsi çərçivəsində Xalq artisti Həmidə Ömərova ilə görüş keçirilib.




Görüşdə rəsmilər, mədəniyyət işçiləri, şəhid anaları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Aparıcı tədbiri açıq elan edərək bildirib ki, kino aktrisası kimi daha çox tanınan Həmidə Ömərova səhnədə də maraqlı obrazlar yaradıb. Eyni zamanda 500-dən artıq filmin dublyajı və səsləndirilməsində fəal iştirak edib. O həmçinin "ABŞ kinosu: 1895–1945-ci illər", "Amerika kino tarixi" və s. kitabların müəllifidir.

Həmidə Ömərova çıxışında kino və teatr sahəsinə gəlişindən danışıb, retro və yeni filmlərimizin müqayisəsini aparıb, kinomuzun inkişafı yollarından danışıb.

Tamaşaçıların suallarını cavablandıran aktrisa rol aldığı bir çox filmlərdə yaşanan maraqlı hadisələrdən söz açıb, xatirələrini bölüşüb.

# Bolqarıstanda Şuşaya həsr olunmuş sərgi və konsert

*əvvəli səh. 1-də*



"Şuşa – Azərbaycanın mədəniyyət irsinin incisi" fotosərgisi Bakı Media Mərkəzinin dəstəyi və Azərbaycanın Bolqarıstandakı Səfirliyinin təşkilatçılığı ilə reallaşıb.

Bolqarıstandakı səfirliyimizin dəstəyi və Bakı Slavyan Universitetinin Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin təşkilatçılığı ilə tərtib edilən rəsm sərgisində isə Bolqarıstanın incəsənət məktəblərinin şagirdləri tərəfindən xarıbülbülü təsvir edən rəsm nümunələri nümayiş etdirilib. Mərkəzin direktoru Sofiya Şıqayeva-Mitreska diqqətə çatdırıb ki, Şuşa bölgəsində bitən endemik xarıbülbül gülü Azərbaycan xalqı arasında sevgi və sülh nişanı olması ilə yanaşı, 2020-ci ilin 44 günlük Vətən müharibəsi dövründə xalqımızın şanlı Zəfərinin rəmzinə çevrilib.

Sərgilərin açılışından sonra festival çərçivəsində musiqili-ədəbi gecə təşkil olunub. Azərbaycanın Əməkdar artisti, bəstəkar, pianoçu Turan Manafzadənin ifasında milli və klassik musiqi əsərləri, həmçinin Şıqayeva-Mitreskanın ifasında Azərbaycan və bolqar dillərində Ağabəyim ağa və Xurşidbanu Natəvanın şeirləri səsləndirilib.

Tədbirdə Sozopol şəhərinin meri, Bolqarıstanda akkreditə olunmuş diplomatlar, yerli sakinlər, media nümayəndələri iştirak ediblər.

"Soleil" Beynəlxalq Frankofoniya Festivalında Azərbaycanın Şuşa şəhərinin tarixi-mədəni irsinə dair təşkil olunmuş tədbirlər yerli media tərəfindən geniş işıqlandırılıb.

Sərgilər iyunun 8-dək davam edəcək.

# İllərdir itkin düşmüş sayılırdılar...

*əvvəli səh. 1-də*



Birinci Qarabağ müharibəsində itkin düşdüyü ehtimal edilən, 30 ildən sonra dəfn yeri və kimliyi müəyyən olunan şəhid Rövşən Məcid oğlu Əliyevlə vida mərasimi Xırdalanda keçirilib. Şəhidin nəşinin qalıqları Xırdalan Şəhidlər xiyabanında dəfn olunub.

Rövşən Məcid oğlu Əliyev 1973-cü ildə Xırdalanda anadan olub. Birinci Qarabağ müharibəsində Daşaltı döyüşlərində (1992) itkin düşdüyü ehtimal olunub. Rövşən Əliyevin Tərtərdəki Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn olunduğu aşkarlanıb və kimliyi müəyyən edilib.

***



Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Mehdiqulu Mədət oğlu Quliyev naməlum şəhid kimi Füzulinin Balabəhmənli kənd qəbiristanlığında torpağa tapşırılmışdı.

Şəhidin nəşinin qalıqları Beyləqan rayonunda Milabad qəsəbə məzarlığında dəfn olunub. Vida mərasimində rayon sakinləri, şəhidin yaxınları, Cəbrayıl və Beyləqan rayon icra hakimiyyətlərinin əməkdaşları iştirak ediblər.

Mehdiqulu Quliyevin həyat yoldaşı və üç azyaşlı övladı da 1993-cü ildə itkin düşüb.

***



Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Zakir Nüsrət oğlun İsaqovun nəşi Zərdab rayonuna gətirilib. O, Tərtər şəhərində Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn olunmuşdu.

Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi Təzəkənd kəndində, anasının məzarı yanında torpağa tapşırılıb, dualar oxunub.

Zakir İsaqov Birinci Qarabağ müharibəsində Ağdərə rayonunda itkin düşmüş sayılırdı.

***



Elman Almaz oğlu Çıraqov 32 il əvvəl Ağdərə uğrunda gedən döyüşlərdə canını fəda edən igidlərdəndir. O, naməlum şəhid kimi Tərtər Şəhidlər xiyabanında dəfn olunmuşdu.

Onunla vida mərasimi ata-baba yurdu Şirvan şəhərində keçirilib. Şəhidin nəşinin qalıqları Şirvan şəhərində torpağa tapşırılıb.

Elman Çıraqov 1971-ci ildə Şirvan şəhərində dünyaya göz açıb. 1992-ci ildə Ağdərənin Çıldıran kəndi ərazisində gedən döyüşlər zamanı şəhid olub və Tərtərdə naməlum şəhid kimi dəfn edilib. Bu il aparılan ekshumasiya işləri nəticəsində kimliyi bilinən 73 nəfərdən biri də Elman Çıraqov olub.

Qeyd edək ki, dəfn mərasimləri əsgəri törənlə də müşayiət olunub. Hərbi orkestr Dövlət Himnini ifa edib, yaylım atəşləri açılıb.

# Ədiblərin xatirəsi anılıb

Şəmkir rayon Əhməd Cavad adına Mədəniyyət Mərkəzi Xalq şairi Hüseyn Arifin (1924–1992) anadan olmasının 100 illiyi münasibətilə tədbir təşkil edib.



Tədbirin aparıcısı şairin ömür yolundan, yaradıcılığından söz açıb. Əməkdar mədəniyyət işçisi, Yazıçılar Birliyinin üzvü, şair Məzahir Hüseynzadə Hüseyn Arif haqqında xatirələrini bölüşüb.

Bədii hissə müğənnilərin ifasında şairin sözlərinə bəstələnmiş mahnılarla davam edib. Aşıqların ifa etdikləri saz havaları da alqışlarla qarşılanıb.

İştirakçılar Şəmkir rayon MKS-nin təşkil etdiyi "Hüseyn Arif – 100" adlı kitab sərgisi ilə tanış olublar.

***



Tovuz rayon Mərkəzi Kitabxanasında isə Xalq şairi Vaqif Səmədoğlunun (1939–2015) 85 illiyi ilə əlaqədar sərgi və əsərlərinin biblioqrafik icmalı təşkil edilib.

Tədbirdə Vaqif Səmədoğlunun yaradıcılığından söhbət açılıb. Vurğulanıb ki, ədibin özünəməxsus fərqli yumoru, üslubu, əsərlərində xalq ləhcəsindən, şivəsindən məharətlə istifadə etməsi oxucularda böyük maraq doğurur. Onun "Külək", "Generalın son əmri", "Yaşıl eynəkli adam", "Bəxt üzüyü", "Yayda qartopu oyunu" və digər əsərləri geniş oxucu kütləsini özünə cəlb edib.

# Musiqi və incəsənət məktəblərinin hesabat konsertləri



Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərində 2023/2024-cü tədris ili üzrə hesabat konsertləri keçirilir. Konsert proqramlarında müxtəlif ixtisaslar üzrə təhsil alan şagirdlər il ərzində mənimsədikləri bilik və bacarıqlarını nümayiş etdirirlər.

Növbəti konsert proqramları iyunun 3-də Mingəçevir şəhər şəhid Fəxrəddin Qasımov adına Uşaq incəsənət məktəbi, Mingəçevir şəhər Bülbül adına 2 nömrəli Uşaq musiqi məktəbi, iyunun 4-də isə Ağdaş şəhər 1 nömrəli Uşaq musiqi məktəbi, Ağdaş rayon Ləki qəsəbə Uşaq musiqi məktəbi və Göyçay şəhər Arif Məmmədov adına Uşaq musiqi məktəbi tərəfindən təşkil edilib.

Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov çıxış edərək şagirdlərə uğurlar arzulayıb, müəllim kollektivlərinə musiqi məktəblərində təhsilin keyfiyyətinin artırılması istiqamətində görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verib.

Bununla da regional idarənin tabeliyində fəaliyyət göstərən musiqi məktəbləri üzrə yekun hesabat konsertləri başa çatıb.

***



Abşeron-Xızı RMİ-nin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərində Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü və "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş hesabat konsertləri keçirilib.

Konsertdə məktəblərin müəllim və şagird kollektivləri müxtəlif musiqi və rəqs nümunələri ilə çıxış ediblər.

***



Zəngilan rayon Bartaz kənd Uşaq musiqi məktəbində (Bakı şəhəri) 2023/2024-cü tədris ilinin hesabat konserti təşkil edilib. Konsertdə Azərbaycan və xarici ölkə bəstəkarların əsərləri, eləcə də xalq və bəstəkar mahnıları ifa olunub. Sonda məktəbin direktoru çıxış edərək tədbir iştirakçılarına uğurlar arzulayıb.

Laçın rayon 2 nömrəli Uşaq musiqi məktəbində (Abşeron rayonu, Xırdalan şəhəri) tədris ilinin başa çatması ilə əlaqədar hesabat konserti keçirilib. Əvvəlcə Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Konsert məktəbin şagird və müəllim kollektivinin rəngarəng çıxışları ilə davam edib.

# Təbiəti sevək və qoruyaq!



Yerlərdə "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə bir sıra tədbirlər keçirilib.

Şamaxı rayon Heydər Əliyev Mərkəzi, Dağlıq Şirvan RTİ, Dağlıq Şirvan RGİİ-nin Şamaxı rayonu üzrə sektorunun birgə təşkilatçılığı ilə "Təbiətimizi sevək və qoruyaq!" adlı rəsm müsabiqəsi keçirilib. Şamaxı rayon Heydər Əliyev parkında gerçəkləşən müsabiqədə iştirakçılar diplomlarla təltif olunublar.

***



Qazax rayon MKS "Ölkəmizin faydalı qazıntıları, əvəzsiz sərvətləri haqqında nə bilirik?" adlı bilik yarışması keçirib. "Zəfər" komandası I, "Göyəzən" komandası II, "Qazançı" komandası isə III yerə layiq görülüb. Qaliblərə hədiyyələr təqdim olunub.

***

Cəlilabad Dövlət Rəsm Qalereyası və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar



uşaqlar arasında rəsm müsabiqəsi keçirilib. Müsabiqədə uşaqlar sağlam gələcək üçün təmiz və yaşıl dünya ilə bağlı rəsmlər çəkiblər. Fərqlənən şagirdlərə təşəkkürnamələr təqdim olunub.

Yardımlı rayon Heydər Əliyev Mərkəzi və rayon Peşə məktəbinin birgə təşkilatçılığı ilə "İşğaldan azad olunmuş ərazilərimizdə törədilən ekoloji terror" adlı tədbir keçirilib. Çıxışlarda düşməndən azad olunan torpaqlarımızda həyata keçirilən abadlıq-quruculuq işlərindən də bəhs olunub. Mövzu ilə əlaqədar təqdimat nümayiş olunub və sərgiyə baxış keçirilib.

**Hazırladı: N.Məmmədli**

# "Gəncə və gəncəlilər"də Qəmbər Hüseynli yad olunub

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Gəncə və gəncəlilər" layihəsini növbəti dəfə təqdim edib.

Layihənin budəfəki təqdimatı görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Hüseynliyə (1916–1961) həsr olunub.

Bəstəkarın mahnılarından ibarət "Ay işığında" adlı konsert proqramında Xalq artisti Şahnaz Haşımova, Əməkdar artist Kəmalə Tağıyeva, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, solistlər Vüsal Namazov, Zəminə Nuriyeva, Azər Verdiyev, Samirə Hacıyeva çıxış ediblər.

Gəncə Dövlət Filarmoniyasının xalq çalğı alətləri ansamblının müşayiəti ilə "Xəyali rəqs", "Ömrümün yazısan", "Tellər oynadı", "Gəlmədin", "İlk məhəbbət", "Söz olur", "Ay işığında" və digər mahnılar səsləndirilib.



# "Hophopnamə" kitab mərkəzində növbəti görüş

Sabirabaddakı "Hophopnamə" kitab mərkəzində millət vəkili, yazıçı-publisist Aqil Abbas və tanınmış jurnalist, yazar, "Bizim yol" qəzetinin və saytının baş redaktoru Bahəddin Həzi ilə oxucuların görüşü keçirilib.

Tədbir Mil-Muğan RMİ və Mil-Muğan RGİİ-nin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Görüşdə Sabirabad rayon icra başçısının birinci müavini Həsən Həsənov, Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı, mədəniyyət işçiləri, rayon ictimaiyyətinin nümayəndələri və gənclər iştirak ediblər.

Tədbirin moderatoru Kənan Səmədov yazarlar haqqında məlumat verib.




Aqil Abbas və Bahəddin Həzi Azərbaycanın yaxın tarixi ilə bağlı xatirələrini bölüşüblər, əsərləri ilə bağlı oxucuların suallarını cavablandırıblar.

Sonda hər iki müəllif kitablarını imzalayaraq iştirakçılara təqdim ediblər.

# Müşfiqin doğum günü Xızıda qeyd edilib

XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, 30-cu illər repressiyasının qurbanı olan Mikayıl Müşfiqin (1908–1938) doğum günü (5 iyun) Xızıda qeyd edilib.

Nakam şairi anmağa gələnlər rayonun Sayadlar kəndində, Mikayıl Müşfiqin Xatirə Muzeyinin qarşısında toplaşıblar. M.Müşfiqin büstü önündə keçirilən tədbirdə şairlər, yazıçılar, elm və incəsənət xadimləri ölməz şairin həyat və yaradıcılığı haqqında danışıb, görkəmli söz ustasının ədəbiyyatımızda tutduğu mövqedən, lirikasının səciyyəvi cəhətlərindən söhbət açıblar.

Bildirilib ki, adını Azərbaycan poeziyası tarixinə qızıl hərflərlə yazdırmağı bacaran Müşfiqin şeirləri yaşlı nəsillə bərabər, gənclərin də dillər əzbəridir.



Müəllifin "Yenə o bağ olaydı", "Oxu, tar!" və bir sıra başqa şeirləri poeziya xəzinəmizin inciləri sırasındadır.

Tədbirdə Xızı rayon məktəbliləri nakam şairin bir sıra şeirlərini səsləndirib, yerli incəsənət nümayəndələri musiqilər ifa ediblər.

# "Qarınqulu ayı balası" Qaxa da gedib çıxıb

Vüqar Haqverdiyevin uşaqlar üçün yazdığı və bir neçə teatrda səhnələşdirilən "Qarınqulu ayı balası" əsəri Qax Dövlət Kukla Teatrında da oynanılacaq. Bu barədə teatrın baş rejissoru Əməkdar artist Yusif Abdurahmanov məlumat verib.

Tamaşanın quruluşçu rejissoru Araz Mehrablı, rəssamı Fidan Səbrili, musiqi tərtibatçısı Nicat Fətəliyevdir. Rolları Azər Kərimov, Elnarə Razıyeva, Məlahət Məmmədova, İlmar Abdullayev, Cəbrayıl Qulušov, Elnurə Əliyeva, Fidan Mahmudzadə və Aynurə Abbasova ifa edirlər.

Tamaşa iyunun sonunda uşaqlara təqdim olunacaq.

# Daim müasir qalan klassika

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında daha bir tamaşanın məşqləri gedir. Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinə yeni səhnə quruluşunu teatrın gənc baş rejissoru Mir Qabil Əkbərov verir.

Tamaşanın ikinci rejissoru muxtar respublikanın Əməkdar artisti Səməd Canbaxşiyev (o həm də tamaşada rol alıb), səhnə tərtibatçısı Naxçıvan MR-in Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı Naxçıvan MR-in Əməkdar artisti Azər Cəfərli, rejissor assistenti Mehri Nəbiyevadır.

Şeyx Nəsrullah rolunu Xalq artisti Rövşən Hüseynov, Kefli İsgəndəri aktyor Məmməd Mehdiyev oynayır. Bundan əlavə, tamaşada Xalq artistləri Rza Xudiyev, Yasəmən Ramazanova, Azərbaycanın Əməkdar artistləri Bəhruz Haxverdiyev, Əbülfəz İmanov, Naxçıvan MR-in Əməkdar artisti Günay Qurbanova, aktyorlar Nəsimi Məmmədzadə, Uğur Nəsirli, Ələsgər Quliyev, Anar Eyvazov, Saynur Babayev, Şölə Alışova, Ləman Vəliyeva və başqaları rol alıblar.

# Əməkdar rəssamın xatirə sərgisi

İyunun 4-də Azərbaycan Rəssamlar İttifaqının (ARİ) Vəcihə Səmədova adına sərgi salonunda mərhum fırça ustası, Əməkdar rəssam Kərim Cəlalın (1944–2008) 80 illiyinə həsr olunan sərginin açılışı keçirildi.

ARİ-nin sədri Xalq rəssamı Fərhad Xəlilov fırça ustasının yaradıcılıq dünyasından söz açdı. Bildirdi ki, Kərim Cəlalın yaradıcılığında ən diqqətçəkən cəhət çoxlarına adi görünən motivləri gündəmə gətirməsidir. “Çörəyin ətri”, “Kənd motivi”, “Rəssamın ailəsi” və s. əsərlərində təqdim olunan ənənəvi motivlərdə müəllifin gördüklərindən heyrətləndiyi sezilir.

Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev bildirdi ki, Kərim Cəlalın əsərləri müxtəlif janrları, dəyişkən mövzuları əhatə etsə də, onlarda müəllifin obyektiv baxışı duyulmaqdadır: “O bu yaradıcı və insani mövqeyi kiməsə xoş gəlmək naminə yox, özünün həyat fəlsəfəsini təşkil edən xeyirlə şər arasında səddin pozulmasına imkan verməmək üçün nümayiş etdirib. Odur ki, əsərləri müxtəlif həyat müstəvilərində qərar tutan insanları belə eyni dərəcədə cəlb etməkdədir. Bu marağı həm də Kərim Cəlalın hamımızın baxdığı, lakin görə bilmədiyi reallığı suallara bələyə bilməsi şərtləndirib. Ən maraqlısı isə bu sualların keçmişimizdən bu günə və gələcəyə ünvanlanmasıdır. Bu isə rəssamın əsərlərinin hələ uzun müddət müasir görünəcəyinə zəmanət verir”.







Kərim Cəlalın dərs dediyi tələbələri onun xatirəsini hər zaman ehtiramla yad etdiklərini dedilər, müəllim kimi qayğıkeşliyindən söz açdılar.

Rəssamın həyat yoldaşı Hüsniyyə xanım sərginin təşkilatçılarına və qonaqlara təşəkkür etdi.

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Təqdim olunan əsərləri izlədikcə müəllifin milli-mənəvi dəyərlərimizə tapındığını və onlardan yaradıcılığında faydalandığını görürük. Tarixi şəxsiyyətlərimiz, muğam sənətimiz, mədəni dəyərlərimiz rəssamın tablolarının əsas mövzusudur. “Azərbaycan muğamı” triptixi bu baxımdan diqqəti xüsusilə cəlb edir. Bu tablolarda həm də musiqimizin tarixini görürük. Koroğlu obrazında Bülbül, Lütfiyar İmanov, muğam ustadlarımız... hər bir əsər bir tarixdir. Eləcə də milli motivlər, adət-ənənələr, həmçinin tarixi-mədəni yaddaşa işıq salan “Attila”, “Dədə Qorqud” əsərləri. Rəssamın sənət dünyası Azərbaycanın mədəni həyatına səyahəti xatırladır.

Qeyd edək ki, Kərim Cəlal Füzuli rayonunda anadan olub. Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini və Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitib. Beynəlxalq sərgilərdə iştirak edib. 1994 və 2004-cü ildə fərdi sərgiləri təşkil edilib. Əl işləri ABŞ, Almaniya, İran və Hollandiyada şəxsi kolleksiyalarda saxlanılır.

**Lalə Azəri**

# “Ömrün Xanım fəsli”

## Xanım İsmayılqızının yaradıcılıq gecəsi



İyunun 4-də Heydər Əliyev Sarayında tanınmış şair, bəstəkar Xanım İsmayılqızının “Ömrün Xanım fəsli” adlı yaradıcılıq gecəsi keçirilib.




Konsertdə Xalq artistləri Mələkxanım Eyyubova, Röya Ayxan, Faiq Ağayev, Nazpəri Dostəliyeva, Əməkdar artistlər Lalə Məmmədova, Rəşad İlyasov, Mətanət İsgəndərli, Fərqanə Qasımova, Abbas Bağırov, müğənnilər Çinarə Məlikzadə, Dilarə Kazımova, Elnur Hüseynov və başqaları Xanım İsmayılqızının populyar bəstələrini ifa ediblər.

Müğənniləri Nərgiz Əliyevanın rəhbərlik etdiyi “Royal Strinq” orkestri (dirijor Mustafa Aşurov) müşayiət edib.

Yaradıcılıq gecəsinin rejissoru Nail Naiboğlu, aparıcısı Leyla Quliyeva olub.

Xanım İsmayılqızının şeirlərini aktyorlar Kamran Ağabalayev, Kamal Yaşar və aparıcı Leyla Quliyeva səsləndiriblər.

# Şuşa teatrında “Dağılan tifaq”




Şuşa Dövlət Musiqili Dram Teatrının kollektivi Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” tamaşası ilə sənətsevərlərin görüşünə gələcək. Premyera iyunun 9-da keçiriləcək.

Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Yadigar Muradov, rejissoru Lalə Şirinova, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Əməkdar artist Azad Məmmədovdur.

Rolları Xalq artisti Şükufə Musayeva, Əməkdar artistlər Teymur Məmmədov, Nazir Rüstəmov, Azad Məmmədov, aktyorlar Rasəf Mehdiyev, Xanirə İsgəndərova, Türkay Cəfərli, Cavidan Kəsəmənli, Məmməd Məmmədov, Gündüz Qasımov və başqaları ifa edəcəklər.

Tamaşada görkəmli bəstəkar Fikrət Əmirovun əsərlərindən, xalq musiqi nümunələrindən, eləcə də otuz ildən artıq Şuşa Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmiş mərhum sənətkar, Əməkdar mədəniyyət işçisi tarzən Nəsib Məhərrəmovun lent yazısından istifadə olunub.

# Gəncə səhnəsində “Qadınlar danışsalar...”




Gəncə Dövlət Milli Dram Teatrı isə yeni səhnə əsəri üçün türk dramaturqu Birgül Gülər Yaşıloğlunun yaradıcılığına müraciət edib. “Qadınlar danışsalar...” pyesi əsasında eyniadlı tamaşanın məşqləri gedir.

Səhnə işinin quruluşçu rejissoru teatrın baş rejissoru Prezident mükafatçısı Elşad Əhmədov, quruluşçu rəssamı Mehdi Hüseynovdur.

Musiqi tərtibatlı tamaşada rolları Xalq artisti Pərvanə Qurbanova, Əməkdar artistlər Kəmalə Məmmədova, Rahilə Məmmədova və aktrisa Sevinc Hüseynova ifa edirlər.

Pyesdə dörd müxtəlif xarakterli qadının taleyindən bəhs edilir. Tamaşanın hazırkı sənət mövsümünün axırınadək təhvil verilməsi gözlənilir.

# Həzin sevgi nəğməsi yeni quruluşda



Şəki Dövlət Dram Teatrının səhnəsində quruluşçu rejissor Elvin Nuri tərəfindən yeni tamaşa hazırlanır. Xalq yazıçısı İlyas Əfəndiyevin müxtəlif teatrlarda, fərqli rejissor yozumlarında tamaşaya qoyulmuş “Sən həmişə mənimləsən” (“Boy çiçəyi”) əsəri bu dəfə Şəkidə səhnəyə çıxacaq.

İkihissəli lirik-psixoloji tənhalıq dramı kimi janr təsnifatı verilən tamaşanın masaarxası məşqləri gedir. Quruluşçu rəssam Sahib Əhmədov, geyim üzrə rəssam Günay Hidayətova, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır.

Səhnə işində Əməkdar artist Rəhim Qocayev, aktyorlar Aytac İsmayılzadə, Lalə Məmməd, Xəyal Salahov və Nərmin Abbasova rol alıblar.

Qeyd edək ki, premyera İlyas Əfəndiyevin 110 illik yubileyi münasibətilə cari mövsümün bağlanışına nəzərdə tutulub.

# Sənin qatarın çoxdan gedib...

Arada kiməsə ağızdolusu bu gerçəkliyi demək istəyirsən. Kimə? Əlbəttə ki, aynadakı sənə. Niyə? Çünki arada lazımdır! Özü də ən çox özünə qarşı yanlışlığa yol verib susanda. İşıq direyinin başındakı uçmuş yuvasından nigaran leylək kimi gözün uzaqlara dikiləndə...




Doğrudan sənin, mənim, onun qatarının çoxdan getdiyini kim təyin edir? Nə bilmək olar, bəlkə heç nə o vağzal, nə o sərnişin, nə də bu təyini verən bir kimsə yoxdur. Amma yox, bizim vağzalda saat var və o lənətə gəlmiş əqrəblər həmişə 21:15-i göstərir. Eybi yox, əsas odur ki, vağzal bələdçisinin daim pürrəngi çayı, kötüyü qalmış süpürgəsi və susmayan fıştırığı var. Belə yaşamağa nə vardı?!

Ötən ay (11 may) Yuğ Dövlət Teatrında türkiyəli dramaturq, məşhur beyin cərrahı Toyqun Orbayın Azərbaycan teatr camesinə yaxşı tanış olan “21:15 qatarı” tamaşasının premyerası oldu.

Səhnə əsərini teatrın baş rejissoru Mikayıl Mikayılov hazırlayıb. Tamaşanın mənim üçün üstün cəhəti onun iki heyətlə – yaşlı və nisbətən gənc nəsil aktyorlarla ərsəyə gətirilməsidir. Bu, müqayisə və təcrübə mübadiləsi üçün əla fürsətdir. Birinci heyətdə rolları Xalq artisti Məmmədsəfa Qasımov (Kişi sərnişin), Əməkdar artistlər Gülzar Qurbanova (Qadın sərnişin), Fərhad İsrafilov, Sonaxanım Mikayılova (Vağzal bələdçiləri) ifa edirdilər.

İkinci heyətdə isə Kişi sərnişin Elgün Həmidov, Qadın sərnişin Zümrüd Qasımova, Vağzal bələdçisi isə Vüqar Hacıyev idi. Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, rejissor assistenti isə Günel Səfərovadır.

Ondan başlayaq ki, müəllif qarışıq (bunu bir müsahibəsində oxumuşam) mən də elə hesab edirəm ki, bu əsər, ümumiyyətlə, səhnələşdirmək üçün deyil. Çünki müəllif əsəri həyat həqiqətləri ilə baş-başa qalmağa məhkum etdiyi təkliklə yazıb. Yəni, bir növ, xəyal dünyası, irrealıq, bəlkə də heç vaxt baş verməyən hadisənin adi təzahüründə özünəməxsus gedişlərlə. Pisdirmi? Yox. Niyə? Çünki orada hər birimizə tanış sadə həqiqətlər var və az qala hamımız bunları əzbər bilirik. Amma nə yazıq ki, əməl eləmirik...

Məlumat üçün deyim ki, müəllifin bu birpərdəli pyesi 2002-ci ildə yazılıb və ölkəsi də daxil olmaqla bir neçə teatrın səhnəsində sənət ömrü yaşayıb. Elə bizim bir neçə teatrımızda da. Heç kim inciməsin, amma bu tendensiya da dəyişmək bilmir. Arayıb-axtarmaq, dramaturji mətndən çox traktovka üzərində var-gəldən, rejissor açarı dediyimiz o nəsnə ilə tablaşa bilmədiklərindən az qala eyni müəlliflərin eyni əsərlərinə müraciət edirlər. Hazır nümunə üzərində işləməyə nə var...

Sözsüz ki, bu tamaşada Xalq artisti Məmmədsəfa Qasımovu, səhnə-sənət cazibəsini heç vaxt itirməyən Əməkdar artist Gülzar Qurbanovanı, eləcə də “Yuğ”un veteranları, teatrın yol yoldaşları Əməkdar artistlər Sonaxanım Mikayılova və Fərhad İsrafilovu unutmaq olmaz. Amma bu fonda nisbətən gənc nəsli – istənilən rolunda tamaşaçı ilə arasında ustalıqla rabitə yaradan Zümrüd Qasımova və Elgün Həmidov, eləcə də səsi, yumoru, tamaşa boyu gözlənilməz təsiri bağışlayan, əslində, mizana uyğun maneraları ilə seçkin Vüqar Hacıyevi deməyə bilmərəm.

Səhnə əsəri mövzu, ideya, janr və üslub xüsusiyyətləri baxımından onsuz da ağır idi. Dar məkanda qurulmuş əlverişsiz dekorasiya və tərtibat sarıdan da istənilən effektivlikdə deyildi. Ancaq quruluşçu rəssamın planetlərarası rabitə kabinəsi, son dəbə uyğun dördbucaqlı peyki, ya da ayaqüstü tabutu yaxşı düşünülmüşdü. Musiqi tərtibatı və işıq həlli də ümumi ovqatı, “Yuğ”un poetikasına vurğunu kifayət qədər aydın ifadə edirdi.

Mənə elə gəlir ki, ümumiyyətlə, bu tamaşanın quruluş işi “Yuğ”un hazırda yerləşdiyi məkana – Dövlət Kukla Teatrının kiçik zalına yox, akademik səhnəyə hesablanıb. Təsvirə ümumi planda baxanda, bilirsiniz nəyə bənzəyir? Kiçik hissələrə ayrılmış və ən vacib detalı olmayan böyük bir pazla.

Sözsüz ki, tamaşa yaxşıdır və haqqında söz deyiləcək işdir. Məhz texniki məsələlər üzərində dayanmağımın vacib səbəbi var: aktyor oyununa maneə. Bunu etiraf eləmək çətindir. Daha doğrusu, yazarkən belə narahat oluram. Amma istənilən rejissor yeni quruluş üçün seçdiyi nümunədə rejissor “mən”indən çox aktyor “sən”inə tərəf “əy”ilməlidir. Çünki rejissorun işinin göstəricisi də məhz aktyorun oyunudur. Aktyor mətndən, oyun, üslub xüsusiyyətlərindən çox rekvizitdə, yəni vizual təfərrüatda qalırsa, biz ondan yaxşı ifaçılıq, dərin mətləblər üçün fundamental oyun gözləyə bilmərik.

Doğrudur, bu gün teatr, çağdaş rejissura, xüsusən də bu əsər monumentallığı diktə etmir. Amma və lakin oyundakı aktyorlar və onların keçmiş olduğu teatr məktəbi başqa lada köklənib...



Bunu da yazmağı özümə borc bilirəm ki, M.Mikayılov öz nəslinin ən adekvat, ən intellektual və sözsüz ki, ən maraqlı rejissorudur. Özü də bunu fərqli teatrlarda verdiyi quruluşlarla çoxdan təsdiqləyib...

Qatar gəlməyən bir vağzal və o vağzalda bir qurban “sərnişin” var. Kişi sərnişin (M.Qasımov, E.Həmidov) vağzal skamyasında ağayana oturub gözləyir. İşinin adı budur. Məgər hamımız bütün həyatımız boyu gözləmirik?

Qəhvəyi plaşı, şlyapası, qulaqcığı, qəzeti, kitabı. Qısacası, əl-ətəyi, başı-gözü yoldadır. Ona gələcək və ya gəlməyəcək qatar qətiyyən maraqlı deyil. Onsuz da heç vaxt və heç kim əsas mənzilbaşına çatmadan gedir sonuncu mənzilə. Əslində, heç ora varmı? Yaxud ora sonuncu mənzildirmi? Bu Kişi sərnişin də nə bizi, nə vağzal məmuru olan bələdçini, nə də gəlməyəcək qatarı vecinə almadan gözləyir. Başqa çarəsi də yoxdur. Onsuz da bizim nə dünyaya gələndə, nə də gedəndə seçim şansımız olmayıb. Dünyaya gələndən gözləmişik hakimi–mütləq olan ölümü. İndi isə hər şey bir rəngdədir: yoxluğun qatı təsvir çalarında.

Qadın sərnişin (G.Qurbanova, Z.Qasımova) həyəcanlıdır. Həyatla, reallıqla hesablaşmır. Üsyan edir. Gözləmək, açıq suallara cavab tapmaqdan yana çox vaxt sərf edib. Nə bilmək olar, bəlkə də ölümdən qaçmaq, yaxud da heç olmamaqdan qurtulmaq üçün yeni liman, yeni sahil, vağzal gəzir?! Ona görə də mücərrəd olan hamıdan və hər şeydən qaçdığı anda həqiqətlər dolu kimi başına yağır. Kişinin və həqiqətin ağuşunda gah məst olur, gah əzab çəkir, gah xoşbəxt olur, gah da...

Sözsüz ki, bunların heç biri Vağzal məmurunun (F.İsrafilov, S.Mikayılova, V.Hacıyev) vecinə deyil. Bədbəxt elə hesab edir ki, lazımi məqamda lazımi yerdədir. Sadəcə, bircə qatar gəlmir. Gəlsə, hər şey yaxşı olar. Hətta iki platformalı vağzalın olması möcüzə kimidir. Amma o da pis olmazdı ha. Nə də olmasa, çox vacib adamdır. Fıştırığı başımıza düşsə də, süpürgəsi həqiqətlərimizi zir-zibilinə qatıb kürüsə də, bədbəxtliyini anlamasa da, təkcə pürrəngi çayı yaxşı süzdüyünə görə o vağzalda yox olmaq olar. Biz hamılıqla əmrsiz, göstərişsiz, tələbsiz, tabesiz dura bilmərik...

Rejissor və müəllif bizi psixoloji ekzistensializm janrına, yəni insan və onun mövcudluğu problematikasına köklənsə də və biz başıalovlu bilib-bilmədən oralarda itib-batsaq da, mütləq bir “bələdçi” gəlib bizi tapıb cəzalandıracaq.

Çünki istədik-istəmədik, biz bu həyata məhkumuq. Qaydalar qutusunun içində qəliblənib qalırıq. Kişi sərnişin təxminən belə deyirdi: “Kiçik dəmir qutulardan (nəqliyyat) beton qutulara, oradan da... gedirik”.

Bir göz qırpımında başına qapaz kimi dəyən bu həqiqətdən qaçmaq üçün cəhd göstərirsən. Amma uğursuz cəhd. Sən çoxdan bir qutu ilə başqa qutu arasındakı cazibəyə uduzmusan. Yəni fərdin başlanğıc və bitiş nöqtəsini təyin və müəyyən etmək sənin “başın” üçün deyil. Tez ol, gir qutuna...

Hər iki heyətin təqdim etdiyi oyunu maraqla izlədim. Düzdür, darıxdığım, mənə görə (həm də mövzunun həlli baxımından göstəricilər şərti ilə), uzun, bəzi məqamlarda aktyorların cansıxıcı şəkildə “dartdığı” səhnələr də az deyildi.

Amma birinci heyətdə tamaşanın yükünü birmənalı M.Qasımov çəkdi. Özü də yəqin o səbəbdən gərgin təsir bağışladı. Eləcə də G.Qurbanova. Bilmirəm, ya ikinci oyunun verdiyi həyəcan, ya da narahat geyim və dekorasiyanın təsirindənmi, məncə, ilk heyətdə bir məqamdan sonra hər aktyor öz oyununa, yəni öz qınına çəkildi. Bu da ümumi fikrin, əsərin rejissora ötürdüyü ideyanın aktyor realizəsində, bir növ rejissor-aktyor-tamaşaçı enerji mübadiləsində narahatlığın səbəb olduğu müəmma yaratdı.

Mətnin çoxluğu, mətləblərin ağırlığı və pyesin uğursuz, səthi tərcüməsi də öz işini gördü.

İkinci heyət isə daha dinamik, komik, ovqatın mahiyyətindən çıxış etməklə bir sıra məqamlarda interaktiv oyun göstərdi. Zümrüd-Elgün dialoqu çox maraqlı, baxımlı idi. V.Hacıyev plastikası, vokal imkanları və sözsüz ki, yaşının bəxş etdiyi çevik maneraları ilə məhdud məkanda öz azad bədən ifadəsini verdi.

Ümumiyyətlə, əvvəldə də qeyd etdiyim kimi, ustadlarla istedadların oyun müqayisəsində yaxşı tamaşadır. Müqayisə zamanı arada mənə elə gəldi ki, ayrı-ayrı rejissorların tamaşasıdır. Mübaliğə eləmirəm. Bəzi məqamlarda fərq bu qədər nəzərəçarpacaq oldu. Sözsüz ki, hər birinin öz yeri var...

**Həmidə Nizamiqızı**

№42 (2107)
7 iyun 2024
www.medeniyyet.az

Məmməd Arif – 120

# Görkəmli ədəbiyyatşünas, mahir tənqidçi

XX əsr Azərbaycan ədəbiyyatşünaslığından söz açılanda ilk yada düşən alimlərdən biri də ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, pedaqoq, nasir, ictimai və dövlət xadimi, akademik Məmməd Arif Dadaşzadədir. İyunun 10-da görkəmli elm xadiminin anadan olmasının 120 illiyi tamam olur.

Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə 10 iyun 1904-cü ildə Bakıda anadan olub. İlk təhsilini rus-tatar (rus-Azərbaycan) məktəbində alır. Bir müddət müəllimlik edir. 1920–1925-ci illərdə Bakı Xalq Maarifi İnstitutunda təhsilini davam etdirir. Tələbəlik dövründən bədii yaradıcılıqla da məşğul olur. 1923-cü ildə "Molla Nəsrəddin" jurnalında "Məğmun xızılı" imzası ilə "Bədgümanam", "Belə getsə düzələr", "Elan", "Mərsiyə xəbərləri" felyetonları dərc edilir. Eyni zamanda şeir və hekayələri də dövri mətbuatda işıq üzü görür.

Gənclik vaxtlarından onda arayıb-axtarmaq, faktların arxasınca gedib həqiqəti üzə çıxarmaq həvəsi də yaranırdı. İllər ötdükcə Azərbaycan və dünya klassik ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, müasir ədəbi proses, ədəbi-mədəni əlaqələr onun əsas tədqiqat obyektlərinə çevrilir. 1931-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsini bitirir. Daha sonra Moskvada Sovet Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olur.

Məmməd Arif 1932–1938-ci illərdə Azərbaycan xalq maarif komissarının müavini, eyni zamanda Azərbaycan Pedaqoji İnstitutunda Rus ədəbiyyatı kafedrasının baş müəllimi, ADU-nun Rus ədəbiyyatı kafedrasının müdiri işləyib. 1957–1959-cu illərdə Azərbaycan EA-nın Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsində çalışıb. 1941–1945-ci illərdə "Vətən uğrunda" jurnalının redaktoru, Azərbaycan EA Rəyasət Heyəti nəzdində Terminologiya Komitəsinin sədri olub. 1944-cü ildə "Azərbaycan sovet ədəbiyyatının inkişafı yolları" mövzusunda namizədlik, 1954-cü ildə "Cəfər Cabbarlının yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. 1955-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1958-ci ildə isə həqiqi üzvü seçilib. Məmməd Arif 1960-cı ildən ömrünün sonunadək EA-nın vitse-prezidenti olub.

Araşdırmalarda qeyd edilir ki, Xalq şairi Səməd Vurğunun dram yaradıcılığı ilk dəfə Məmməd Arif tərəfindən monoqrafik tədqiqata cəlb olunub. Alimin "Səməd Vurğunun dramaturgiyası" monoqrafiyası elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.



Məlum olduğu kimi, S.Vurğunun "Aygün" poeması çap olunan-




da müəllif haqsız tənqidlərə məruz qalır. Akademik Məmməd Arif 1958-ci ildə yazdığı "Aygün" və müasirlik" adlı məqaləsində əsəri yüksək qiymətləndirir. Tədqiqatçı bildirir ki, poemada qoyulan həyati məsələləri şair quru öyüd-nəsihət tərzində deyil, canlı insan xarakterlərinin, təbii və real hadisələrin təsviri yolu ilə əks etdirib.

Məmməd Arif Azərbaycan ədəbiyyatı ilə yanaşı, rus ədəbiyyatı klassiklərindən Aleksandr Puşkin, Lev Tolstoy, Aleksandr Qriboyedov, Mixail Lomonosov, Anton Çexov, Maksim Qorki, Vladimir Mayakovski, Nikolay Ostrovski və başqaları haqqında da elmi məqalələr yazıb. O, araşdırmalarında həmçinin Azərbaycan-rus ədəbi əlaqələrinə də yer verib. Bu mənada, müəllifin "Lermontov və Səhhət", "Krılov və Azərbaycan ədəbiyyatı", "Rus klassiki Azərbaycan səhnəsində", "Nekrasov və Abbas Səhhət", "Maksim Qorki və Azərbaycan" məqalələrini qeyd etmək olar. Alim eyni zamanda ikicildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" və "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerki"nin müəlliflərindən biridir.

Məmməd Arif tərcümə sahəsində də fəaliyyət göstərib, R.Taqor, E.Remark, N.Qoqol, L.Tolstoy, A.Çexov, M.Qorki, N.Ostrovski, A.Barbüs, M.Servantes və başqa ədiblərin əsərlərini dilimizə çevirib. Onun əsərləri də bir sıra xalqların dillərinə tərcümə edilib.

Akademik Şəfaət Mehdiyev 1974-cü ildə "ən görkəmli elm və mədəniyyət xadimlərindən biri" kimi qiymətləndirdiyi Məmməd Arifə müraciətlə yazırdı: "Keçdiyiniz şərəfli yol bizim üçün də ibrətamizdir. Sizdən təkcə ədəbiyyatşünaslığı və mahir tənqidçiliyi deyil, bəlkə daha artıq həyatın keçilməmiş təlatümlü yollarında səbir və nəzakətlə, gələcəyə böyük inamla addımlamağı da öyrənmək olar...".



Məmməd Arif 1963–1967-ci illərdə Azərbaycan SSR Ali Sovetinin sədri olub. "Əməkdar elm xadimi" (1960) fəxri adına və "Azərbaycan ədəbiyyatı tarixi" monoqrafiyasına görə Dövlət mükafatına (1974) layiq görülüb.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2014-cü ildə görkəmli alimin anadan olmasının 110 illiyi ölkəmizdə geniş qeyd edilib.

Məmməd Arif 27 dekabr 1975-ci ildə Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub.

**S.Fərəcov**

# Sənətinin hökmdarı, 100 yaşın mübarək!



Yəqin ki, iyunun 7-də tarix boyu çox yaddaqalan hadisələr baş verib, özündən sonra adı, sənəti və xidmətləri xatırlanan kimlərsə dünyaya gəlib. Bu, sadə və adi məntiqlə anlaşılan bir məqamdır. Bizim üçün, Azərbaycan mədəniyyətinin daşıyıcıları, təəssübkeşləri üçün bu tarix görkəmli teatr və kino aktyoru, Azərbaycanın Xalq artisti, Dövlət mükafatı laureatı Məlik Yusif oğlu Dadaşovun doğum günüdür. O gündən bir əsr keçir.

Bu gün Məlik Dadaşovun 100 illiyidir.

Məlik Dadaşovun siması, səsi o qədər unikal, o qədər sevimli, o qədər fərqli və o qədər də bəllidir ki, onun haqqında nə yazasan ki, təzə, maraqlı qarşılansın…

…Yazaq ki, o, Azərbaycan səhnəsində və kinosunda Nəriman Nərimanov obrazının ən sanballı ifaçısıdır, – yenilik olmayacaq.

…Yazaq ki, "Axırıncı aşırım"dakı Qəmlodan, "Dəli Kür"dəki Molla Sadıqdan, "Fəryad"dakı Armendən sonra tamaşaçılar onu oynadığı (oynadığı olsaydı, belə təsir bağışlamazdı), yox, yaratdığı mənfi obrazları ilə eyniləşdirir, ekrandakı qəhrəmana yönəlik nifrəti ifaçıya ünvanlayırdılar, – bu faktları da bilməyən yoxdur.

…Yazaq ki, Məlik Dadaşov təkcə "Azərbaycanfilm"də deyil, digər ittifaq kinostudiyalarının istehsalı olan bədii lentlərdə də təkrarsız, yaddaqalan surətlər yaradıb, – xəbərsizlərin bunu bilməsi üçün internet mənbələrində yüngülcə axtarış aparması bəsdir.

Bu gün biz Məlik Dadaşovu sanki onun yubiley gecəsində xatirə danışan, ona yaxın insanların dilindən anırıq.

İlk xatirəni danışan onun tələbəsi, Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının aktrisası Xalidə Əlməmmədovadır:

– Məlik Dadaşov başqa aləm idi! Kənardan çox zəhmli insan təsiri bağışlasa da, ürəyiyumşaq idi. Bizə ata kimi o qədər öyüd-nəsihət verirdi ki… 1990-cı illərdə oxumuşuq, ozamankı vəziyyət də necə idi, özünüz bilirsiniz. Məlik müəllim bizə deyirdi ki, axşamlar küçəyə çıxanda ehtiyatlı olun, hərəniz bir rayondan gəlmisiniz, birdən kimsə aldadar sizi. Başa düşürəm, teatrlara gedib tamaşalara baxmalısız. Yenə də ehtiyatlı olun, tanımadığınız adamlardan uzaq durun.

*– Bəs dərs prosesində necə idi?*

– Məlik müəllimlə səhnəni paylaşanda hiss etmirdin ki, tamaşadasan, rol oynayırsan. Biz o vaxt diplom tamaşası olaraq, Sabit Rəhmanın "Nişanlı qız" komediyasını hazırlayırdıq. Bu tamaşa ona çox doğma idi. Səhv etmirəmsə, ilk quruluşda özü Camalı oynamışdı, 80-ci illərdə isə əsəri özü səhnələşdirmişdi, bu dəfə Camalı oğlu Rafael Dadaşov oynamışdı. Mənə Bənövşə rolunu tapşırmışdı. Obrazı elə başa salmışdı ki, hələ məşqdə elə bilirdim ki, mən Bənövşəyəm, Xalidə deyiləm. Məlik müəllimdə obrazı özü kimi çatdırıb onun hisslərini tamaşaçıya ötürmək qabiliyyəti çox güclü idi, üstəlik, o, pedaqoq kimi bu hissi tələbələrə aşılamağı bacarırdı. Körpə əvvəl oturur, sonra iməkləyir, ardınca əlləri ilə yapışıb qalxır, yavaşca addım atır. Məlik müəllim sənətin sirlərini bizə məhz bu cür, səbirlə, addım-addım öyrədirdi. O vaxtlar özünü pis hiss edirdi, qan təzyiqi tez-tez qalxıb, qəfil düşürdü. Hətta bəzən elə olurdu ki, həyat yoldaşı Dolores xanım onunla birlikdə gəlirdi dərsə, Tədris teatrının salonunda sakitcə oturub bir kəlmə demədən dərsin başa çatmağını gözləyərdi. Bəzən də qaynı maşınla gətirib-aparırdı. Məlik müəllim başı nə qədər bərk ağrısa da, halı pis olsa da, dərsdən qalmazdı, gecikməzdi. Bütün tələbələrin qavrama qabiliyyəti eyni deyildi. Onun izahını başa düşməyəndə özü səhnəyə çıxıb tələbənin əlindən tutub addım-addım səhnəni başa salardı. Deyirdi ki, sabah siz səhnəyə çıxanda mən utanmayım. Əksinə, sizin çıxışınıza baxan tamaşaçı desin ki, halal olsun ustadına!

*– Kədərli də olsa, həmin günü xatırlamağınızı istəyəcəyəm…*

– Həmin gün isə Qasımla Mindillinin səhnəsini məşq edirdik. Niyazi ilə Əfşar çıxış edəndə Məlik müəllim səhnəyə qalxdı ki, qurduğu mizanı onlara şəxsən göstərsin. Orada belə səhnə var idi ki, Qasımın ayağı ilişib səndirləməli idi.





Məlik müəllim bunu özü göstərmək istədi. Müəllim səhnəyə qalxdı, sözünü dedi və səndirləyib … kulisdə yox oldu. Biz də elə bildik ki, müəllim səhnəyə nəsə artırıb. Bir də gördük ki, Məlik müəllim dizləri üstündə yeriyərək, ay mənə nə oldu belə, deyərək səhnəyə çıxdı… Bir an bunu da tamaşaya artırma kimi anladıq. Amma görəndə ki müəllimin alnı qanayıb, başa düşdük ki, nəsə ciddi hadisə baş verib. Onu əyləşdirdik, sakitləşdirməyə çalışdıq. Oğlanlar tez yüyürüb təcili yardıma zəng vurdular, həyat yoldaşının, qaynının telefon nömrəsini tapıb xəbər verdilər. Təcili yardım müəllimi xəstəxanaya apardı. Sonradan bildik ki, çox pis zədə alıb. Biz onu həmin gün axırıncı dəfə gördük. Əgər təzyiq onu narahat etməsəydi, o hadisə də baş verməsəydi, müəllimimiz uzun ömür yaşayardı…

*– Kövrəltdim sizi… Bu hadisə bəlkə də sizin gənc yaşda ilk böyük və şəxsi facirəniz olub deyə, yaddaşınızda böyük iz buraxıb.*

– Elədir…

*– Məlik Dadaşovun vəfatından sonra "Nişanlı qız"ın taleyi necə oldu?*

– Sonra bizim kursu rəhmətlik Vaqif Əsədova verdilər. Ona da Allah rəhmət eləsin. Biz xahiş etdik ki, "Nişanlı qız"ı elə Məlik Dadaşovun düşündüyü kimi quraq: çünki birinci hissə tam hazır idi. Sağ olsun, Vaqif müəllim ikinci hissəni elə qurdu ki, tamaşanı iki fərqli rejissorun işlədiyi hiss olunmadı.



Biz diplom tamaşamızı Məlik Dadaşovun xatirəsinə həsr etdik.

***

Xalq artisti Mərahim Fərzəlibəyovun Azərbaycanda qurduğu və çox maraqla qarşılanan ilk tamaşalarından biri "Bütün Şərq bilsin!" mənzum pyesi olub. Həmin pyesdə də… Bundan sonrasını rejissor özü nəql edir:

– 1977-ci ildə Qroznı şəhərində təyinat müddətimi işləyib Azərbaycana qayıdanda məni Sumqayıt teatrına dəvət etdilər. O vaxt teatrın direktoru Məlik müəllimin böyük qardaşı Salman Dadaşov idi. Bu teatrda tamaşalar üzərində işləyəndə Məlik Dadaşovla tanış olduq. Mən 1980-ci ildə Nəriman Həsənzadənin Nəriman Nərimanova həsr etdiyi "Nəriman" poeması əsasında yazdığı pyes üzərində işləməyə başlayanda Məlik müəllim mənə bir şəkil göstərdi. "Ulduzlar sönmür" filmində Nəriman Nərimanov roluna foto-sınaq zamanı çəkilmişdi. Məlik müəllim çox istəyirdi ki, Nərimanovun obrazını yaratsın. Aktyorun daxili potensialı öz yerində, üstəgəl, zahiri oxşarlıq yüzdə yüz olsa da, onu həmin rola təsdiq etməmişdilər, ürəyində nisgil qalmışdı. Mən heç düşünmədən onu Nərimanov roluna təsdiq etdim. Məlik müəllim rol üzərində elə həvəslə işləyirdi ki, çox vaxt heç Bakıya da getmirdi, mənimlə birlikdə mehmanxanada qalırdı.

*– Və həmin tamaşa çox böyük əks-səda doğurdu.*

– Bəli, bilirsiniz ki, Ulu öndər Heydər Əliyev sənətə, xüsusən də teatra böyük qayğı və maraqla yanaşırdı. Biz 1982-ci ildə "Bütün Şərq bilsin!" tamaşasını Bakıda, indiki Akademik Milli Dram Teatrının binasında oynadıq. Ulu öndər tamaşadan sonra yaradıcı heyətlə görüşərkən əsər haqqında, Məlik müəllimin obrazı barədə çox maraqlı fikirlər söylədi. Ona dedi ki, sən Nərimanov obrazını elə canlandırdın ki, xalq onu həkim, insan, partiya xadimi kimi yenidən sevdi.

*– Deyəsən, o zaman hansısa festivala getmişdi həmin tamaşa…*

– O zaman Sovet İttifaqı Kommunist Partiyasının 26-cı qurultayı ərəfəsində teatr tamaşalarına ümumittifaq baxışı keçirilirdi. Mərkəzi Komitənin Mədəniyyət şöbəsində çalışan Çausov soyadlı məmurun başçılıq etdiyi komissiya 15 respublikanı gəzib tamaşalara baxırdı. Onlar Azərbaycandan bizim tamaşanı seçdilər. Biz də 100 nəfərlik böyük heyətlə Moskvaya getdik və "Mossovet" Teatrının səhnəsində iki dəfə "Bütün Şərq bilsin!" tamaşasını oynadıq. Həmin festivalda Məlik Dadaşov "partiya xadimi rolunun ən yaxşı ifası" diplomuna layiq görüldü.

*– Sizin rejissor-aktyor tandeminiz sonralar da uğurla davam etdi…*

– Mən Milli Dram Teatrına gələndən sonra da quruluş verdiyim bir neçə tamaşada gözəl obrazlar yaratdı. "Maqbet"də Maqbet, "Közərən ocaqlar"da Nəriman Nərimanov… Yadımdadır, Ulu öndər Heydər Əliyev "Maqbet" tamaşasına baxmışdı, Məlik Dadaşovun, Hökümə Qurbanovanın (Ledi Maqbet) ifasını çox bəyənmişdi.

*– Mərahim müəllim, maraqlıdır ki, digər teatr rejissorlarından fərqli olaraq, siz kinoda da birgə çalışmısınız… Tofiq Tağızadə "O dünyadan salam" filmini çəkəndə Məlik Dadaşov artıq çox maraqlı kino obrazlar qalereyası yaratmışdı, pedaqoq kimi də yetişmişdi desək, yenilik olmaz.*

– Düzdür, mən həmin filmdə Şeyx Əhməd roluna təsdiqləndikdən sonra Məlik Dadaşovun dayağını hiss etdim. Şeyx Əhməd mənim kinoda ikinci rolum idi, amma Məlik Dadaşov ekranda çox fərqli, maraqlı, bir-birinə bənzəməyən obrazlar yaratmışdı. Çəkiliş vaxtı biz eyni otaqda qalırdıq. Mən rejissor olsam da, özümü kənardan görə bilmirdim.

*– Üstəlik, film çəkilişində məntiqi ardıcıllıq gözlənilmir. Sonuncu kadrlar əvvəldə çəkilir, ilk kadrlar ortada. Bu, teatr qaydalarına öyrəşmiş adam üçün çətindir.*

– Bəli, bu məqam da var. "O dünyadan salam" filmində mənim Şeyx Əhmədimin dolğun alınması üçün Tofiq Tağızadə ilə Məlik Dadaşovun çəkiliş zamanı çəkdikləri zəhmət eynidir. Məlik Dadaşov bizi tez tərk etməsəydi, yəqin ki səhnədə, ya da ekranda yenə rastlaşardıq.

***

Məlik Dadaşov Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında işlədiyi illərdə Cənnət Səlimova görkəmli dramaturqumuz İlyas Əfəndiyevin "Büllur saray"da tamaşasını qurur. 1984-cü ildən indiyədək unudulmayan həmin tamaşada o teatrın çox gözəl aktyorları iştirak edir. Ağahüseyn rolunda Məlik Dadaşov, onun qızı Aynur rolunda isə Xalq artisti Lyudmila Duxovnaya çıxış edir.

Tamaşa haqqında geniş danışmaq, aktyor heyətinin hünərindən bəhs etmək istəmirəm. Mövzumuz o deyil… Lyudmila Semyonovnanın bir xatirəsi yadıma düşür: "Cənnət xanım tamaşanı elə qurmuşdu ki, finalda musiqi səslənirdi və iştirakçılar rəqs edirdilər. Pyesdə Aynur yaşadığı mühitdən uzaqlaşmaq, büllur sarayı çilik-çilik etmək istəyir, lakin bacarmır. Həmin səhnədə mən – Aynur atam Ağahüseynə baxır, bir kəlmə demədən baxışlarımla, süst rəqs hərəkətlərimlə ondan imdad diləyirdim. Məlik Dadaşov – Ağahüseynin gözləri ilə deyirdi ki, qızım, bizim düşdüyümüz bu oyun bitməyəcək, biz ömrümüzün sonunadək bu oyunun içindəyik! Mən bu baxışları görəndə tam Aynurlaşırdım və gözlərimdən yaş süzülürdü!... Məlik müəllim öz oyunu, istedadının gücü ilə məni aktyor bacarığının zirvəsinə çatdırırdı...".

Bax belə.

***

…Məlik isminin mənası hökmdar deməkdir. Malik isə nəyəsə sahib olmaq anlamını verir. Bəzən adamlar bu adları qarışdırır, Məlikə Malik deyir, Maliki Məlik çağırırlar. Dərindən düşünəndə ehtiva etdiyi məna etibarilə bu kəlmələr şəxs adı kimi qavranılanda təxminən eynidir. Malik olduğun nəsnəyə hökmün yetirsə, deməli, sən həm də Məliksən! Bu yazının əbədi qəhrəmanı kimi. Böyük istedada Malik olub, sənət dünyasında öz hökmünü vermiş Məlik. Bir əsrlik yubileyin mübarək!

**Gülcahan Mirməmməd**

# Rus Dram Teatrı "Melixovo baharı"ndan qayıdıb

### "Tamaşaçılar bizim "Kapitan qızı"mızı səmimi və maraqla qarşıladılar"




Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı ilk dəfə "Melixovo baharı" Beynəlxalq Teatr Festivalında iştirak edib. Moskva Vilayəti Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə A.P.Çexovun "Melixovo" Muzey-Qoruğu tərəfindən təşkil edilən ənənəvi festival yazıçının yeddi il yaşayıb-yaratdığı malikanədə keçirilir.

Bu il mayın 17-dən 26-dək davam edən sayca 24-cü "Melixovo baharı" festivalına Azərbaycan, Belarus, Qazaxıstan və Əlcəzairdən, eləcə də Rusiyanın müxtəlif şəhərlərindən 20-dən çox teatr kollektivi qatılıb. Festivalın proqramı ənənəvi olaraq Çexovun əsərləri və Çexov haqqında əsərlər əsasında tamaşalardan tərtib olunur. Bu il "Çexov +" proqramına 225 illiyi qeyd olunan A.S.Puşkinin əsərləri üzrə tamaşalar da dəvət olunmuşdu. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı festivala ədibinin "Kapitan qızı" povesti əsasında səhnələşdirilən tamaşanı apardı.

Teatrın direktoru Əməkdar mədəniyyət işçisi Ədalət Hacıyev təəssüratını AZƏRTAC-ın müxbirinə danışıb.

*– Belə festivallarda iştirak teatra nə verir?*

– Hər şeydən əvvəl, inam, xüsusilə aktyorlar üçün. Başqa tamaşaçı, fərqli səhnə. Bu dəfə isə biz tamamilə yeni şəraitlə üzləşdik. Bir qayda olaraq səfər tamaşaları klassik məkanlarda keçirilir. Melixovoda sənətçilərimiz açıq səhnəyə çıxdılar və təbii ki, bəzi mizanlar səhnənin tələblərinə uyğunlaşdırıldı. Buna görə də tamaşanın özü əsas "bünövrəsini" qoruyub saxladığı üçün oyun bir qədər fərqli alındı. Maraqlı təcrübə idi. Onu da deməliyəm ki, tamaşaçılar bizim "Kapitan qızı"mızı səmimi və maraqla qarşıladılar.

Əvvəlcə düşündüm ki, bunun səbəbi Bakıdan olmağımızla əlaqədardır. Ancaq tamaşadan sonra müzakirə zamanı mütəxəssislərdən və aktyorlarımıza çox yaxşı sözlər söyləyən digər qonaqlardan əsl heyranlıq etirafları eşidəndə, uğurumuzun sırf tamaşamızla bağlı olduğu məlum oldu. Puqaçov, Qrinyov, Maşa, Şvabrin və əsərin digər qəhrəmanları – həmin axşam aktyorlarımızın ifasında onları görənlərin hamısında xoş təəssürat oyadıb. O qədər xoş arzular və səmimi sözlər eşitdik ki.

Puqaçov obrazı Azərbaycanın Əməkdar artisti Firdovsi Atakişiyevin ifasında tamaşaçıların böyük marağına səbəb oldu. Əməkdar artistlər Natalya Baluyeva və Rita Əmirbəyovanın valehedici oyununu da qeyd etmək istəyirəm. Xalq artisti Aleksandra Nikuşinanın parlaq oyununu yüksək qiymətləndirən tamaşaçılar gözəl aktrisanı ayaqda alqışladılar.

*– "Melixovo baharı" bənzərsiz məkanı olan əlamətdar teatr festivallarından biridir...*

– Ab-havanın özü də xüsusi idi. Bu, hər şeydən əvvəl, tarixdir. "Melixovo" qoruq-muzeyi böyük rus yazıçısı və dramaturqu Anton Pavloviç Çexovun burada yaşadığı dövrün ruhunu qoruyub saxlayır. Bu məkanı əhatə edən gözəl təbiətlə vəhdətdə olmaq heyratamiz idi. İnsan hətta orada başqa cür nəfəs almağa başlayır. Bir az yağış yağdı, sonra dərhal günəş parladı, bir anda səhnə sanki yeniləndi və bu mənzərə teatrın olduğu məkanla tam vəhdət içində idi.

Onu da deyim ki, qoruq-muzeyin ərazisinə nəzarəti həyata keçirən texniki xidmət binası içərisində müasir avadanlıqların yerləşdirildiyi taxta konstruksiyaya malikdir. Bir tərəfi XX əsrin əvvəllərinə, digəri isə XXI əsrə açılan gözəl qapı ilə ayrılan mühitdə sanki zaman səyahətinə çıxırsan...

*– Bəs tamaşaya necə hazırlaşdınız?*

– Bütün günü ayaq üstə keçirdik, amma heç bir yorğunluq hiss etmədik. Festivalda günümüz səhər saat 11-də, biz malikanəyə gələndə başladı və saat 19:00-da artıq tamaşamız var idi. Meydançada olan hər şeyə "köklənməli idik".

Ancaq yaxın ərazidə gəzmək və ekskursiyalara getmək üçün vaxt ayırmaya bilməzdik. Tamaşanı həm gur "bravo" sədaları altında oynadıq, həm də uzun müddət dağılışıb gedə bilmədik, aktyorları buraxmayan tamaşaçılar və peşəkar ekspert qrupu ilə ünsiyyət davam etdi.

Ertəsi gün festivalın icraçı direktoru Yelena Alekseyeva bir daha bizə tamaşaya olan heyranlığını bildirdi, teatrımızın daha əvvəl iştirak etmək üçün dəvət almadığına təəssüfləndiyini dedi. Yeri gəlmişkən, o, bizim festivalda gələn il də iştirak etməyimizi arzu etdiyini dilə gətirdi. Bizi o qədər gözəl qəbul etdilər ki, Bakıya qayıtdıqdan sonra festival təşkilatçılarının ünvanına teatr adından təşəkkür məktubu göndərdik. Ümid edirəm ki, gələn il yenidən "Melixovo baharı"nın ecazkar abhavasına qərq olacağıq.

*– Sizcə, "Melixovo baharı"nda iştirak aktyorlarda "özünü necə büruzə verib"?*

– Bu festivaldan əvvəl "Kapitan qızı"nı klassik formatda çıxış etdiyimiz Sankt-Peterburqdakı "Rusiyadakı görüşlər" rus teatrları festivalına aparmışdıq. Burada, bayaq artıq qeyd etdiyim kimi, həm səhnə, həm də tamaşaçılar üçün yerlər açıq məkanda yerləşir. Bu cür gözlənilməz şəraitdə qastrol qrupumuzun bütün üzvlərinin özlərini necə sübuta yetirmələri mənə əsl komanda olduğumuzu hiss etdirdi.



Qeyd etmək lazımdır ki, A.S.Puşkinin 225 illiyinə həsr olunmuş xüsusi "Çexov +" proqramı çərçivəsində çıxış etdik, buna görə də yazıçının əsərləri əsasında digər tamaşalar da təqdim edildi. Hər teatrın özünəməxsus incəlikləri, maraqlı anları, diksiyası və səhnə təcəssümü vardı. Ancaq "Kapitan qızı" onlardan fərqlənirdi. Tamaşanın rejissoru İqor Konyayev, rəssamı Olga Gerr materialı orqanik şəkildə səhnə məkanına köçürdülər, amma əsas odur ki, teatrımızın aktyorları tamaşaya aşiq olduqlarına görə yenə də böyük məmnuniyyətlə çalışdılar.

Sankt-Peterburqda da "Kapitan qızı" tamaşaçılar tərəfindən yüksək qiymətləndirildi, buna görə aktyorlarımız Melixovoya gələndə artıq daha böyük təcrübəyə malik idilər. Hər zaman alışdıqları səhnə şəraitinin gözlənilməzliyi onların oyununa heç cür təsir göstərmədi, özləri, teatrı və ölkəmizi inamla təmsil etdilər.

Yeri gəlmişkən, gənc aktyorlar bu günlərdə Azərbaycan Yazıçılar İttifaqında Puşkinə həsr olunmuş kitabın təqdimatı çərçivəsində də öz bacarıqlarını göstərə bildilər.

Bu tədbirə dəvət aldıqdan sonra Cövhər Abdullayev (Qrinyov), Tamilla Abutalıbova (Maşa) və Rüfət Əliyevin (Şvabrin) iştirak etdiyi "Kapitan qızı"ndan kiçik parçanı oynamalarını təklif etdim. Çox kiçik bir yerdə, hətta tədbirə toplaşanlardan bir neçə addım aralıda, amma adi teatr şəraitində olduqları kimi həmin parçanı ürəklə ifa edən gənc aktyorlar sürəkli alqışlara layiq görüldülər.

*– Gənc aktyorlarla fəxr edirsinizmi?*

– Əlbəttə! Onların püxtələşməsi mənim gözlərimin qarşısında baş verir. Bu gənclər, belə deyərdim ki, günbəgün yox, saatbasaat böyüyürlər. Bizim indiki gənc aktyorların hamısı Mədəniyyət və İncəsənət Universitetinin məzunlarıdır, bu gün isə onlar Azərbaycanın Xalq artisti Aleksandr Şarovskinin rəhbərliyi altında "məktəb"in tələbələridir.

Artıq ənənəvi olaraq, neçənci ildir ki, Xalq artisti Cənnət Səlimova məni buraxılış tamaşalarına baxmağa dəvət edir. Bu günlərdə o mənə bir neçə tələbənin oyununa diqqət yetirməyi tövsiyə etdi. Əlbəttə, özümün də illər boyu qazandığım təcrübə tələbənin bizim "formata" uyğun gəlib-gəlmədiyini ayırd etməyə imkan verir, buna görə də əminliklə deyə bilərəm ki, truppamızdakı gənclər bu gün "trenddədirlər", biz onların işindən razıyıq.

Həm də vacib olan odur ki, onları yaşlı aktyorlarımız da qəbul ediblər və bəyəniblər: mən hətta hər aktyorun oyununu bəyənməyən yaşca böyük sənətkarlarımızın gənclərimiz haqqında müsbət fikir söylədiklərini eşitmişəm.

*– Aktyor truppası məmnundursa, deməli, teatrın direktoru özünü rahat hiss edə bilər.*

– Birmənalı olaraq! Aktyor nəsillərinin yerdəyişməsi onu göstərir ki, teatr var. Teatr bundan sonra da var olacaq! Vaxtilə çox gənc yaşlarında bizə gələn aktyorlarımız artıq Azərbaycanın əməkdar artistləridir. Çox illər əvvəl olduğu kimi, onlar təcrübələrini yerdəyişmə və qazandıqları təcrübəni, hətta rolları növbəti aktyor nəslinə ötürürlər. Tarix təkrarlanır... Üç aktyor nəsli bir-birini dəstəkləyir. Əgər teatrda belə bir ənənə yaşanırsa, deməli, onun gələcəyi də var.

# "Kinomexanikin son ümidi" Almaniyada

### Azərbaycanlı rejissorun filmi operator işinə görə mükafat qazanıb



Almaniyada (Köln şəhəri) kino sahəsi üzrə nüfuzlu mükafatlardan sayılan, operator (təsvir rejissorluğu) və montaj (qrafika) işinə görə verilən "Alman Kamera Mükafatı" (Deutscher Kamerapreis) 34-cü dəfə qaliblərin elan edib.

Almaniyanın WDR və ZDF teleradio şirkətləri tərəfindən də dəstəklənən müsabiqənin builki qalibləri arasında azərbaycanlı rejissor Orxan Ağazadənin "Kinomexanikin qayıdışı" tammetrajlı sənədli filmi də var. Film "Təsvir həllinə görə" nominasiyasında fərqlənib və mükafata operator Daniel Quliyev layiq görülüb. 2024-cü ilin istehsalı olan sənədli film (xronometrajı 87 dəqiqə) Azərbaycan və talış dillərində çəkilib.

Filmin qəhrəmanı keçmiş kinomexanik Samid oğlunu iş qəzasında itirəndən bəri tənha və melanxolik hisslərlə yaşayır. Bu əhvaldan qurtulmaq üçün əvvəlki peşəsinə qayıtmaq, kino nümayişlərini canlandırmaq üçün işə başlayır. Gənc Ayazı da bu işə təşviq edir. Aralarında böyük yaş fərqi olsa da, hər ikisinin kinoya həvəsi var və ucqar kənddə kütləvi kino nümayişini yenidən təşkil etmək ideyası ilə yaşayırlar. Bunun üçün kənd sakinlərini kino ekranı üçün yer tikməyə inandırmaq, köhnə proyektorları təmir etmək, rəhbərlikdən icazə almaq və s. lazımdır...

Filmin ssenari müəllifi və rejissoru Orxan Ağazadə, operatoru Daniel Quliyev, montajçısı Nicole Schmeier, səs rejissoru Morteza Najaflo, prodüserləri Lino Rettinger (Almaniya) və François-Pierre Claveldir (Fransa).

Orxan Ağazadə 1988-ci ildə Lənkəranda anadan olub. Bakı Slavyan Universitetində jurnalistika ixtisası üzrə bakalavr təhsili alıb. 2015–2018-ci illərdə Təhsil Nazirliyinin göndərişi ilə "Xaricdə Təhsil Dövlət Proqramı" çərçivəsində "London Film School"da (Böyük Britaniya) magistraturada oxuyub. Tələbəlik illərində çəkdiyi filmlərlə festivallarda iştirak edib. "Məhbus" tammetrajlı film layihəsi Kann Film Festivalının "Cinefondation Residency" ssenari inkişafı platformasına seçilib.

## Xatirə təqvimi — 8–11 iyun

### Azərbaycan

**8 iyun 1885** – Arxeoloq Davud Mikayıl oğlu Şərifov (1885–1952) Tiflisdə doğulub. Azərbaycan Dövlət Tarix Muzeyinin müdiri olub, arxeoloji materiallar əsasında "Bizim mədəni irsimiz" adlı dərs vəsaiti yazıb.

**8 iyun 1900** – Heykəltəraş İbrahim Hilal oğlu Quliyev (1900–1938) anadan olub.

**8 iyun 1981** – Azərbaycanın ilk professional qadın opera müğənnisi, SSRİ Xalq artisti Şövkət Həsən qızı Məmmədova (18.4.1897 – 1981) vəfat edib. Milan Konservatoriyasında təhsil alıb. 1923-cü ildə Bakı Teatr Məktəbinin (indiki Mədəniyyət və İncəsənət Universiteti) yaradıcılarından olub.

**9 iyun 1930** – Əməkdar incəsənət xadimi, bəstəkar Telman Hacı oğlu Hacıyev (1930 – 5.1.1991) anadan olub. "Göygöl", "Lalələr", "Tələbəlik illəri" və s. populyar mahnıların müəllifidir.

**9 iyun 1960** – Tanınmış rəssam Ucal Həsən oğlu Haqverdiyev (1960–2004) Bakıda anadan olub. Əsərləri Fransa, Avstriya, Almaniya, Türkiyə və s. ölkələrdə sərgilənib.

**9 iyun 1984** – Naxçıvanda böyük şair-dramaturq Hüseyn Cavidin ev-muzeyi açılıb.

**9 iyun 1989** – Görkəmli müğənni, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Rəşid Məcid oğlu Behbudov (14.12.1915 – 1989) vəfat edib. "Arşın mal alan" (1945), "Bəxtiyar" (1955) filmlərində baş rollara çəkilib. Mahnı Teatrını yaradıb.

**9 iyun 2021** – Xalq artisti, aktyor, kinorejissor Ramiz Hacıağa oğlu Əzizbəyli (20.7.1948 – 2021) vəfat edib.

**10 iyun 1904** – Ədəbiyyatşünas, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Məmməd Arif (Məmməd Arif Məhərrəm oğlu Dadaşzadə; 1904 – 27.12.1975) anadan olub. Elmi tədqiqatlarla yanaşı, şeir və hekayələrin də müəllifidir.

**10 iyun 1910** – Əməkdar artist Anatoli Semyonoviç Urvantsev (1910–1971) anadan olub. Akademik Opera və Balet Teatrının balet artisti olub, Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**10 iyun 1933** – Xalq rəssamı Rafiq Mahmud oğlu Mehdiyev (1933 – 28.11.2009) Naxçıvan MR Şahbuz rayonunda anadan olub. Kitab və dəzgah qrafikası sahəsində çalışıb, həmçinin rəngkarlıq əsərlərinin müəllifidir.

**10 iyun 1938** – Şair, tərcüməçi Əli Vəkil (Əli Vəkil oğlu Səfiyev; 1938 – 7.1.2022) Ermənistanın Basarkeçər (indiki Vardenis) rayonunun Yuxarı Şorca kəndində anadan olub.

**10 iyun 1982** – Bakıda Azərbaycan professional vokal məktəbinin banisi Bülbülün xatirə muzeyi açılıb. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**10 iyun 1983** – Xalq artisti, bəstəkar, pedaqoq Səid Əli oğlu Rüstəmov (12.5.1912 – 1983) vəfat edib. "Beşmanatlıq gəlin", "Durna" və s. musiqili komediyalarının, populyar mahnıların müəllifidir. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri olub.

**10 iyun 1989** – Xalq şairi, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm (Süleyman Əliabbas oğlu Rüstəmzadə; 12.3.1906 – 1989) vəfat edib. Kitabları: "Gün o gün olsun ki...", "İki sahil", "Durna" (komediyalar), "Təbrizim", "Azərbaycana gəlsin" və s.

**11 iyun 1892** – Xalq artisti, opera müğənnisi Aleksandr Aleksandroviç Drozdov (1892 – 15.6.1968) Omskda (Rusiya) anadan olub. 1935-ci ildən Azərbaycan Opera və Balet Teatrında çalışıb. Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.

**11 iyun 1913** – Görkəmli aktrisa, Azərbaycanın və SSRİ-nin Xalq artisti Hökümə Abbasəli qızı Qurbanova (1913 – 2.11.1988) Bakıda doğulub. 1938-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Dram Teatrında çalışıb, xarakterik obrazların parlaq ifaçısı olub. "Almaz", "Onu bağışlamaq olarmı?", "İnsan məskən salır" filmlərində çəkilib.

**11 iyun 1923** – Əməkdar rəssam Mahmud Əzizağa oğlu Tağıyev (1923–2001) Bakıda anadan olub. Sovet tikililərini təsvir edən tabloların, portret janrında ("Dədə Qorqud", "Səməd Vurğun") əsərlərin müəllifidir.

**11 iyun 2020** – Xalq artisti, xanəndə Teymur Ağaxan oğlu Mustafayev (10.4.1939 – 2020) vəfat edib. 1964-cü ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

### Dünya

**8 iyun 1810** – Alman bəstəkarı, musiqişünas, pedaqoq Robert Şuman (Robert Schumann; 1810 – 29.7.1856) anadan olub. Simfoniya, sonata, konsert və digər musiqi əsərlərinin müəllifidir.

**8 iyun 1837** – Rus rəssamı İvan Kramskoy (1837–1887) anadan olub. Tarixi və portret janrında əsərlərin müəllifidir.

**8 iyun 1916** – İtalyan kinorejissoru Luici Komençini (Luigi Comencini; 1916–2005) anadan olub. Komediya janrında filmlər ("Çörək, məhəbbət və fantaziya", "Romalı gözəlçə") çəkib.

**9 iyun 1870** – İngilis yazıçısı Çarlz Dikkens (Charles John Huffam Dickens; 7.2.1812 – 1870) vəfat edib. Əsərləri: "Oliver Tvistin macəraları", "Devid Kopperfild" və s.

**9 iyun 1891** – Amerika bəstəkarı, çoxsaylı müziklər müəllifi Koul Porter (Cole Porter; 1891-1964) anadan olub.

**10 iyun 1819** – Fransız rəssamı Jan Dezire Qustav Kurbe (Jean-Desire-Gustave Courbet; 1819–1877) anadan olub.

**10 iyun 1915** – Yəhudi əsilli Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1976) laureatı Sol (Solomon) Bellou (Saul Bellow; 1915–2005) anadan olub. Əsərləri: "Yerlə göy arasında", "Qurban", "Yağışlar hökmdarı Henderson", "Hersoq", "Oğru" və s.

**10 iyun 1929** – Rus müğənnisi, SSRİ-nin, Rusiyanın və Azərbaycanın Xalq artisti Lyudmila Georgiyevna Zıkina (1929–2009) anadan olub.

**10 iyun 2008** – Dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatov (12.12.1928 – 2008) vəfat edib. "Cəmilə", "Əlvida, Gülsarı!", "Ağ gəmi", "Əsrə bərabər gün", "Edam kötüyü", "Dağlar düşəndə" və s. əsərlərin müəllifidir.

**11 iyun 1864** – Alman bəstəkarı, dirijor Rixard Ştraus (Richard Strauss; 1864–1949) anadan olub.

**11 iyun 1899** – Yapon yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1968) Yasunari Kavabata (1899–1972) anadan olub. "Dağın naləsi", "Köhnə paytaxt" romanlarının müəllifidir.

**11 iyun 1910** – Fransız dəniz səyyahı, fotoqraf, ixtiraçı Jak İv Kusto (Jacques-Yves Cousteau; 1910–1997) anadan olub.

**Hazırladı: V.Orxan**

# Çağdaş Qərbi Azərbaycan aşıqları ilə bağlı audiodisk hazırlanır



Azərbaycan Aşıqlar Birliyi (AAB) Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2024-cü il üçün kiçik qrant müsabiqəsində ("Qərbi Azərbaycana qayıdış prosesi" istiqaməti üzrə) qalib olan layihənin icrasına başlayıb.

AAB-nin katibi, layihənin rəhbəri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, "Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı" adlı layihənin əsas məqsədi tarixi yurd yerlərimizdən didərgin salınan, bu gün Azərbaycanın müxtəlif guşələrində yaşayan aşıqların yaradıcılıq fəaliyyətini təbliğ etməkdir. Əsas diqqət ona yönəldiləcək ki, çağdaş Qərbi Azərbaycan aşıqları bu gün ölkəmizin müxtəlif bölgələrində məskunlaşsalar da, Göyçə, İrəvan, Dərələyəz, Zəngəzur, Ağbaba, Loru-Pəmbək aşıq mühitlərinin ənənəsini qoruyub yaşada biliblər.

Layihənin icra planına uyğun olaraq, Qərbi Azərbaycan əsilli aşıqların ifaları əsasında audiodiskə daxil ediləcək aşıqlar dəqiqləşdirilir. Bundan sonra isə hər aşığın səsinə uyğun olaraq aşıq havası seçiləcək və bu zaman Qərbi Azərbaycanda yaradılmış, bu bölgənin aşıq mühitləri ilə bağlı olan havalara üstünlük veriləcək.

# "Şəhərlərin melodiyası"

## XTNS-nin "Azərbaycan" pavilyonunda Bayram Salamovun sərgisi

Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (XTNS) tanınmış azərbaycanlı rəssam, Rusiya Rəssamlarının Yaradıcılıq İttifaqının və Beynəlxalq Rəssamlar Federasiyasının üzvü Bayram Salamovun sərgisi açılıb.

"Şəhərlərin melodiyası" adlı sərgidə müəllifin 20-dən çox rəsm əsəri nümayiş etdirilir.

"Azərbaycan" pavilyonunun direktoru Səadət Qədirova qeyd edib ki, Bayram Salamovun əsərlərinin parlaq palitrası və maraqlı mövzuları heç kəsi laqeyd qoymur: "Bayram Salamovun rəsmləri kortəbii, rəngarəng və canlıdır, uşağın dünyaya baxışını çatdırır. Rəssam rəng sxemləri və maraqlı hekayələri ilə tamaşaçılara Azərbaycan haqqında danışır".





Bayram Salamov çıxışında sərginin təşkilinə görə "Azərbaycan" pavilyonuna təşəkkür edib və Azərbaycan rəssamlıq məktəbinin zəngin ənənələrini qeyd edib.

Bayram Salamov Şəki rayonunun Qoxmuq kəndində anadan olub. 1986-cı ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib, Şəki Dram Teatrında dekorasiya rəssamı kimi fəaliyyət göstərib. Rəssam sonra Rusiyanın Tolyatti şəhərinə köçüb, 2010-cu ildə orada "Bayram Art Gallery" adlı şəxsi rəsm studiyasını açıb.

Rəssamın əsərləri Rusiyanın bir çox şəhərlərində, həmçinin Azərbaycan, Almaniya, İtaliya, Çexiya və Kiprdə keçirilən sərgilərdə nümayiş etdirilib, müxtəlif ölkələrdə şəxsi kolleksiyalara daxil edilib.

# Bakı-Buxarest marşrutu üzrə həftədə iki dəfə




İyunun 3-dən etibarən həftədə iki dəfə olmaqla (bazar ertəsi və cümə axşamı) Bakı-Buxarest marşrutu üzrə birbaşa uçuşlar başlayır. Uçuşlar AZAL tərəfindən icra ediləcək.

Bununla bağlı Dövlət Turizm Agentliyi, Azərbaycan Turizm Bürosu və "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin təşkilatçılığı, Azərbaycanın Rumıniyadakı Səfirliyinin dəstəyi ilə Buxarestdə təqdimat tədbiri keçirilib.

Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyi Aparatının rəhbəri Kənan Qasımov Azərbaycan və Rumıniya arasında turizm əlaqələrinin dinamik inkişaf etdiyini, uçuşların təkcə Rumıniya ilə deyil, digər Avropa ölkələri ilə də turizm əlaqələrinə müsbət təsir edəcəyini bildirib.

Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov və Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare də birbaşa uçuşların iki ölkə arasında əməkdaşlığın inkişafına töhfəsini qeyd ediblər.

Rumıniyanın 60-dan çox turizm sənayesi nümayəndəsi və media nümayəndələrinin də qatıldığı tədbirdə Azərbaycanın mədəni irsi, milli mətbəx nümunələri, turizm potensialı haqqında məlumat təqdim olunub, Azərbaycan şərablarının dequstasiyası keçirilib.

# 5 milyard sərnişin və 1 trilyon dollar gəlir

2024-cü ildə dünya üzrə aviaşirkətlər təxminən 5 milyard sərnişin daşıyacaq və onların gəlirləri təqribən 1 trilyon dollara çatacaq. Hər iki göstərici rekord həddə çatacaq və pandemiyanın mənfi təsirləri tamamilə aradan qaldırılacaq.




Bu barədə Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) son hesabatında bildirilir. Qeyd olunub ki, 2024-cü ildə dünya aviaşirkətlərinin xalis mənfəəti (gəlirdən xərclər çıxıldıqdan sonra) 30 milyard dollardan çox olacaq.

IATA Dubayda keçirilən illik ümumi yığıncağında bildirib ki, bununla belə, ümumi xərclər də bu il rekord həddə çatacaq və 9,4 faiz artaraq 936 milyard dollar təşkil edəcək.

Assosiasiyanın baş direktoru Villi Uolş qeyd edib ki, aviaşirkətlərin gəlirlərinin artması və maliyyə dayanıqlığının gücləndirilməsi mühüm amillərdir.

COVID-19 pandemiyası hava nəqliyyatını böhrana sürükləyib, təyyarə parkına mənfi təsir göstərib, habelə minlərlə iş yerinin ixtisarına səbəb olub. IATA-nın məlumatına görə, 2020–2022-ci illər arasında itkilər 183 milyard dollar təşkil edib. Bu il gözlənilən sərnişin sayına və 996 milyard dollarlıq gəlirə baxmayaraq, mülki aviasiya sənayesi üçün bəzi problemlər qalmaqdadır.

# Eyfelə qalxmaq istəyənlər iki dəfə fikirləşməli olacaqlar

Parisdə keçiriləcək Yay Olimpiya Oyunları ərəfəsində şəhərin simvolu sayılan Eyfel qülləsinin ziyarət haqqı artırılır.

Fransa mediasının məlumatına görə, iyunun 17-dən etibarən qüllədə liftdən istifadə etməklə ziyarətin qiyməti 20%, pilləkənlərlə qalxmağın qiyməti isə 42% artırılacaq.

Sözügedən tarixdən liftlə ziyarət (qüllənin ən hündür nöqtəsinə qalxma) üçün biletin qiyməti 29,40 avrodan 35,30 avroya qaldırılacaq. Klassik gəzinti (ikinci mərtəbəyə pilləkənlə çıxma) bileti isə 10 avrodan 14,20 avroya qaldırılır. Bildirir ki, qiymət artımında məqsəd tikilinin təmir xərclərini qarşılamaqdır.

Eyfel qülləsi dünyanın ən çox turist cəlb edən tikililəri sırasında yer alır. Ötən il qülləni 6,3 milyondan çox turist ziyarət edib.

# Con Lennonun ifa etdiyi gitara

## 2,9 milyon dollara satılıb




Əfsanəvi "The Beatles" qrupunun üzvü Con Lennonun ifa etdiyi gitara "Julien's Auctions" hərrac evi tərəfindən 2,9 milyon dollara satılıb.

1965-ci ildə "The Beatles" qrupunun "Help!" albomunun yazılmasında ifaçının çaldığı 12 simli akustik "Hootenanny" gitarası 1960-cı illərin əvvəllərində Bavariyanın "Framus" şirkəti tərəfindən hazırlanıb.

Gitara "The Beatles" qrupunun "It's Only Love", "I've Seen a Face" və "Girl" albomlarının yazılmasında da istifadə olunub.

Alət şotlandiyalı gitaraçı, "Peter və Qordon" pop duetinin üzvü Qordon Uollerə məxsus olub və musiqiçi sonradan onu qrupun menecerlərinə verib və əlli ilə yaxın "toxunulmaz" qalıb. İllər sonra gitaranın yeni sahibləri onu yaşadıqları evin çardağında tapıblar və 485 min funt-sterlinqdən başlayaraq hərraca çıxarıblar.

Gitaranı yekun qiymətə Nyu-Yorkdakı "Hard Rock Cafe" onlayn şəkildə alıb. Bu, hərracda ən baha qiymətə satılan gitara sayılır.

"Julien's Auctions" hərrac evi bundan öncə Con Lennona aid daha bir "J-160E Gibson" akustik gitarasını 2015-ci ildə 2,4 milyon dollara satmışdı.

Xronoqraf

# Tarixdə bu gün



## Olaylar, faktlar (8 – 10 iyun)

### 536 il əvvəl...

**9 iyun 1488-ci ildə** Şahdağ ətəyində Şirvanşahların birləşmiş qüvvələri ilə Qızılbaş (Səfəvi) qoşunları arasında döyüş olub. Döyüşdə Şirvanşahların qoşunları qalib gəlib, qızılbaşların rəhbəri Şeyx Heydər həlak olub. Bir neçə ildən sonra onun oğlu İsmayıl taxta çıxdı və Səfəvi dövlətinin əsasını qoydu.

### 420 il əvvəl...

**8 iyun 1604-cü ildə** növbəti Səfəvi-Osmanlı müharibəsi (1603–1612) gedişində I Şah Abbasın qoşunları İrəvan qalasını ələ keçirib. Osmanlının nəzarətindən çıxan İrəvanın idarəçiliyi Əmirgünə xan Qacara verilib. Bundan bir qədər əvvəl Səfəvi qoşunları Təbrizi Osmanlıdan geri almışdı. 1580-ci illərdə tərəflər arasındakı müharibədə indiki Azərbaycanın əksər əraziləri (Lənkəran-Astara bölgəsi istisna olmaqla) Osmanlının nəzarətinə keçmişdi.

### 209 il əvvəl...



**9 iyun 1815-ci ildə** Napoleonun süqutundan sonra başlanan (18 sentyabr 1814-cü il) və Avropada yeni düzəni müəyyənləşdirən Vyana Konqresi başa çatıb. Konqresin nəticələrinə əsasən, Polşa əraziləri tamamilə (onadək Rusiya və Prussiya arasında bölüşdürülmüşdü) Rusiyaya birləşdirildi, Niderland Krallığı və İsveçrə Konfederasiyası yaradıldı.

### 126 il əvvəl...

**9 iyun 1898-ci ildə** Böyük Britaniya ilə Çin arasında "Syanqan konvensiyası" imzalanıb. Çin Syanqan (Honkonq) adasını 99 illiyə Britaniyaya icarəyə verib. 1984-cü ildə Londonla Pekin arasında imzalanan bəyannaməyə əsasən, Britaniya 1997-ci ildə adanı Çinə qaytardı. Honkonq azad iqtisadi zona statusu ilə Çinin inzibati ərazisi oldu.

### 82 il əvvəl...

**10 iyun 1942-ci ildə** alman faşist qoşunları Çexiyanın Liditse qəsəbəsində qətliam həyata keçiriblər. Faşist idarəçisinin öldürülməsinə cavab olaraq qəsəbənin bütün kişi əhalisi (172 nəfər) güllələnib. 200-dək qadın və uşaq isə konslagerə göndərilmiş və onların təxminən yarısı da orada ölmüşdü. Müharibədən sonra Liditsedə memorial muzey yaradıldı.

### 80 il əvvəl...



**10 iyun 1944-cü ildə** Almaniyanın işğalçı qoşunları Fransanın Oradur-sür-Qlan qəsəbəsində də kütləvi qətliam törədiblər. Ümumilikdə qəsəbənin 640-dək sakini qətlə yetirilmişdi. Müharibədən sonra qəsəbə bərpa edilmədi və xarabalıqlar açıq səma altında xatirə muzeyinə çevrildi. Yaxınlıqda isə eyniadlı yeni qəsəbə inşa edildi.

### 31 il əvvəl...

**9 iyun 1993-cü ildə** Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev ölkə başçısı Əbülfəz Elçibəyin dəvəti ilə Bakıya gəlib. Gəncə hadisələri (4 iyun) ilə iflas etmiş Azərbaycan Xalq Cəbhəsi iqtidarı Heydər Əliyevdən qiyamçı polkovnik Surət Hüseynovla danışıqlar aparmağı və böhranı sahmanlamağı xahiş edib.

**Hazırladı: V.Orxan**

# Mədəniyyət Yolu Bursadan keçir

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə reallaşan Mədəniyyət Yolu Festivalının növbəti ünvanı Bursadır. Apreldə Adanada başlayan, may ayında Şanlıurfada davam edən festivala 1–9 iyun tarixlərində zəngin tarixi-mədəni irsi ilə ad çıxaran, iki əsrdən artıq (İstanbulun fəthinədək) Osmanlı imperatorluğunun paytaxtı olmuş Bursa ev sahibliyi edir.




Bu il ilk dəfə Türkiyə Mədəniyyət Yolu Festivalının marşrutuna daxil olan Bursada ümumilikdə 40 fərqli məkanda 300-dən çox tədbir nəzərdə tutulub.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy festivalın maddi və qeyri-maddi mədəniyyət sərvətləri, qədim tarixi və zəngin sivilizasiyası ilə seçilən şəhərin dünyaya daha geniş şəkildə tanıdılmasına vəsilə olacağını vurğulayıb. Qeyd edib ki, Mədəniyyət Yolu Festivalının əsas hədəfi də Türkiyənin bölgə-bölgə, şəhər-şəhər tanıtımına töhfə verməkdir.

Bursada təxminən minədək sənətçinin iştirakı ilə mədəniyyət mərkəzləri, teatrlar, muzeylər, rəsm qalereyaları, kitabxanalar və açıq məkanlarda davam edən festivalın əsas səhnəsi Yunuseli hava limanında qurulub. Burada Semiçenk, Norm Ender, Bengü, Mert Demir, Can Bonomo, "Madrigal" ifaçı və musiqi qruplarının konsertləri keçirilir.

"Dünya Turizm Təşkilatının məlumatları göstərir ki, Türkiyə dünya turizm reytinqində ilk 5 ölkədən biridir. Biz nəinki Super liqaya yüksəlmişik, liderlik uğrunda mübarizə aparırıq. Arxeologiyadan qastronomiyaya, ənənəvi sənətlərdən rəqəmsal instalyasiyalara, konsertlərdən sərgilərə mədəniyyət və incəsənəti bir dam altında toplayan Türkiyə Mədəniyyət Yolu Festivalı indi dünyanın ən əhatəli və ən böyük festivalı olaraq Türkiyənin beynəlxalq brendidir", – deyə nazir Ersoy vurğulayıb.

Qeyd edək ki, festivalın iyun ayı proqramında daha iki şəhər – Samsun (8–16 iyun) və Trabzon (22–30 iyun) var. Festival noyabr ayınadək ümumilikdə 16 şəhəri əhatə edəcək. 2021-ci ildə əsası qoyulan festival dördüncü dəfə keçirilir. Festivalın proqramını kulturyolufestivali.com saytında izləmək mumlundur.

**V.Kamal**

# Dünya istiləşdikcə nəfəsi də daralır...

UNESCO-nun yeni hesabatında bildirilir ki, dünya okeanının istiləşməsi son 20 ildə iki dəfə, dəniz səviyyəsinin qalxması tempi də axırıncı 30 ildə bir o qədər artıb.




30-a yaxın ölkədən 100-dən çox alimin töhfələri ilə UNESCO-nun nəşr etdiyi "Okeanın vəziyyəti – 2024" hesabatı dünya okeanının üzləşdiyi təhdidlərlə bağlı həyəcanverici yeni məlumatları ortaya qoyur.

Hesabatda qeyd olunur ki, atmosfer temperaturu dəyişməyə meyilli olsa da, okean davamlı olaraq istiləşir. Hazırda okean iyirmi il əvvəlkindən iki dəfə daha çox istiləşib və 2023-cü ildə 1950-ci illərdən bəri ən yüksək artım müşahidə olunur.

UNESCO diqqətə çatdırıb ki, bu istiləşmənin dramatik nəticələrindən biri bütün dünyada dəniz səviyyəsinin qalxmasıdır. Okean atmosferə buraxılan artıq istiliyin 90 faizini udur və su qızdıqca onun akvatoriyası genişlənir. Okeanların istiləşməsi hazırda dəniz səviyyəsinin qlobal yüksəlişinin 40 faizini təşkil edir və son 30 ildə yüksəlmə sürəti iki dəfə artaraq 9 santimetrə çatıb.

Hesabatda göstərilir ki, 1960-cı illərdən bəri okeanlar temperaturun qalxması və çirklənmə, o cümlədən çirkab suları və kənd təsərrüfatı axıntıları səbəbindən oksigeninin 2 faizini itirib. Sahil əraziləri xüsusilə təsirlənir, heyvan və bitki növlərinin nəfəs alması getdikcə çətinləşir, azalan oksigen səbəbindən demək olar ki, heç bir dəniz həyatının qalmadığı təxminən 500 "ölü zona" müəyyən edilib.

UNESCO-nun əldə etdiyi məlumatlar bir daha göstərir ki, ən çox mənfi təsirə sahilyanı növlər məruz qalır; açıq dənizlər durmadan turşulaşsa da, sahil suları dramatik mənzərə alır, heyvanların və bitkilərin gənc nəsilləri kütləvi şəkildə tələf olurlar. UNESCO bildirir ki, ölkələrin təxminən 60 faizi hələ də dənizlərin yaşıl dibinin bərpası və mühafizəsini öz milli mühafizə planlarına daxil etmir.

Beynəlxalq Muğam Mərkəzinin direktoru Sahib Paşazadə və kollektivi Xalq artisti, professor Vamiq Məmmədəliyevə bacısı

**Xariqə Məmmədəliyevanın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1278
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641